Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır...

BİNƏQƏDİ

№03 (47) | 24 yanvar 2014 | İCTİMAİ-SİYASİ QƏZET | Qiyməti: 40 qəpik

20 Yanvar faciəsi ilə bağlı aksiya

səh. 3

Şəhidlərin xatirəsi yad olunmuşdur

Qanlı 20 Yanvar hadisələrindən 24 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ümumxalq hüzn günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişdir.

1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. İyirmi dörd il əvvəl yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun qoşun birləşmələri Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəlmişdir. Dövlətimizin "Əbədi məşəl" abidəsi önünə əklil qoymuşdur.

Dövlətimizin başçısı İsveçrədə işgüzar səfərdədir

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.

Dövlətimizin başçısı səfər çərçivəsində bir sıra ölkələrin prezidentləri və baş nazirləri, habelə dünyada tanınan şirkətlərin rəhbərləri ilə görüşlər keçirmişdir.

Yanvarın 22-də Prezident İlham Əliyev Davosda "Holcim" şirkətinin sədri və baş icraçı direktoru Bernar Fontana, Fransanın "Airbus Group International" şirkətinin baş icraçı direktoru Jan Pyer Talamoni, "Swiss Re" şirkətinin beynəlxalq əlaqələr üzrə sədri Martin Parker, İsrail Dövlətinin Prezidenti Şimon Peres, "Philips" şirkətinin vitse-prezidenti və satış üzrə rəhbəri Ronald de Jong, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşmüşdür.

Görüşlərdə əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı investisiyaların əhəmiyyəti vurğulanmış, əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Yanvarın 23 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşündə Azərbaycan ilə İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi, hərbi əməkdaşlıq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidentinin Gəncə və Göygölə səfəri

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərinə səfəri çərçivəsində Heydər Əliyev park-kompleksinin və Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə yenidən qurulan Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.

Parkda yenidənqurma işlərinə 2012-ci ildə başlanılıb. Heydər Əliyev Parkının girişində möhtəşəm "Zəfər tağı" ucaldılıb. Hazırda burada gənclər üçün əyləncə mərkəzi və qış parkının tikintisi davam etdirilir. Ümummilli lider Heydər Əliyev hələ sovet dövründə burada Gəncənin rəmzi sayılan çinar ağacları əkib. Həmin ağaclar parka xüsusi gözəllik verir.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, Heydər Əliyev Mərkəzinin tikintisində şəhərsalma memarlığının son nailiyyətlərindən, həmçinin keyfiyyətli və müasir materiallardan istifadə olunub. Binanın fasadında böyük peşəkarlıqla işlənən milli memarlıq elementləri diqqəti cəlb edir. Mərkəz perimetr boyunca səkkizbucaqlı sütunlarla əhatə olunub. Üçmərtəbəli mərkəzdə şüşədən müasir günbəz quraşdırılıb. Günbəzdə Azərbaycanın xəritəsi əks olunub. Burada fəaliyyət göstərəcək Heydər Əliyev Muzeyi ulu öndərin keçdiyi zəngin həyat yolu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirir. Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi inkişafına yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib. Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Muzeydə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yolu, Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələrinə də geniş yer ayrılıb. Ekspozisiyada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da peşəkarlıqla istifadə olunması diqqəti cəlb edir. Heydər Əliyev Mərkəzində oxu zalı, elektron kitabxana, xarici dil kursları, "IDEA" İctimai Birliyi resurs mərkəzi, videokonfrans salonu, hərtərəfli təchizatı olan iclas və konfrans zalları vardır. Akt zalında şəhərin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr və əlamətdar günlərlə bağlı tədbirləri yüksək səviyyədə keçirmək mümkündür. Xalçaçılıq tədris mərkəzi, rəqs dərnəyi və sərgi salonu da muzeyin layihəsinin orijinallığına dəlalət edir.

Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Gəncə şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Mərasim iştirakçılarını salamlayan dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə gəncələri təbrik edərək demişdir: "Düz iki il bundan əvvəl – 2012-ci il yanvarın 21-də bu parkın təməl daşı qoyulmuşdur. Gözəl təsadüfdür ki, düz iki ildən sonra biz parkın və möhtəşəm Mərkəzin açılışını qeyd edirik. Bu parkın və Mərkəzin yaradılması çox böyük hadisədir. Möhtəşəm Mərkəz ulu öndərin xatirəsinə gözəl abidədir, burada ulu öndərin həyat və fəaliyyətinin bütün anları, bütün mərhələləri əks olunub. Eyni zamanda, istənilən beynəlxalq tədbirin keçirilməsi üçün də gözəl imkanlar vardır.

Ardı səh. 2-də

Mühafizə işi yüksək səviyyədə təşkil olunub

Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi şəhərciyində aparılan tikinti və yenidənqurma işləri ilə tanış olmuş, Xidmətin idman kompleksinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin hərbi şəhərcikdəki abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoymuşdur.

Sonra Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin Situasiya Mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur. Dövlətimizin başçısına son illər hərbi şəhərcikdə həyata keçirilən tikinti və yenidənqurma işləri barədə məlumat verilmişdir.

Sonra Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin idman kompleksinin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Kompleksin girişində ulu öndər Heydər Əliyevin barelyefi vurulmuş, ümummilli liderin və Prezident İlham Əliyevin ölkədə idmanın və Olimpiya hərəkatının inkişafına göstərdikləri diqqət və qayğıdan bəhs edən fotoguşə yaradılmışdır.

Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış olduqdan sonra Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə görüşmüşdür.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əiyev Xidmətin şəxsi heyətini salamlayaraq demişdir: "Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi şəhərciyində aparılan yenidənqurma-tikinti işləri ilə tanış oldum. İşlər çox yüksək səviyyədə görülür, inzibati binalar tikilir, təmir edilir. Gözəl idman kompleksi tikilmişdir. Burada istənilən yarışı keçirmək mümkündür. Əlbəttə ki, burada əməkdaşların fiziki hazırlığı üçün bütün imkanlar vardır. Çünki Xüsusi Dövlət Mühafizə Xidmətinin əməkdaşlarının peşəkarlığının tərkib hissəsi olan fiziki hazırlıq da yüksək səviyyədə olmalıdır. Burada idmanın bütün növləri ilə məşğul olmaq mümkündür. Əminəm ki, əməkdaşlar bu imkanlardan səmərəli şəkildə istifadə edəcəklər, yüksək keyfiyyətlə, zövqlə tikilmiş bu idman kompleksi, uzun illər uğurla fəaliyyət göstərəcəkdir".

Ölkəmizdə mühafizə işinin təşkili və həyata keçirilməsinin yüksək səviyyədə olduğunu nəzərə çatdıran dövlət başçısı xidmətin kollektivini bu münasibətlə təbrik etmişdir: "Xidmətin fəaliyyətini yüksək qiymətləndirirəm. Xüsusi Dövlət Mühafizə Xidməti ölkəmizin uğurlu inkişafında böyük rol oynayır. Azərbaycanda təhlükəsizliklə bağlı bütün tədbirlər yüksək səviyyədə təmin edilir. Əminəm ki, bundan sonra da belə olacaqdır. Çünki yerləşdiyimiz region əlbəttə ki, hamımızdan xüsusi diqqət tələb edir. Azərbaycanın ətrafında gedən xoşagəlməz proseslər əlbəttə ki, bizi daha da səfərbər etməli, daha da diqqətli olmağa çağırmalıdır. Biz buna hazırıq. Bu gün Azərbaycanın uğurlu inkişafı, o cümlədən daxili sabitlik və təhlükəsizlik hesabına təmin edilir.

Sizə yeni ildə yeni uğurlar arzulayıram. Bu kompleksin, ümumiyyətlə, burada aparılan işlərin yüksək səviyyədə olduğunu bir daha qeyd etmək və sizi bu işlər münasibətilə təbrik etmək istəyirəm".

• **AKTUAL** 3

Xalqımızın qəhrəmanlıq salnaməsi

• **SOSİAL** 4

Xocəsəndə əhalini narahat edən məsələlər həllini tapır

• **CƏMİYYƏT** 5

Avtobuslarda kart sisteminin tətbiqi sərnişinlərin rahatlığını təmin edəcək

• **MÜSAHİBƏ** 6

Əsl muğam ustası daim sənətin sirlərini öyrənməyə çalışmalıdır

aktual

Azərbaycan Prezidentinin Gəncə və Göygölə səfəri

Əvvəli səh. 1-də

Eyni zamanda, bu böyük parkın yaradılması bir möcüzədir. Deyə bilərəm ki, Azərbaycanın ən böyük parkıdır. Ərazisi 450 hektar, uzunluğu 2 kilometrdir. Gəzinti, istirahət üçün bütün imkanlar vardır. Cəmi iki il ərzində demək olar ki, yeni gözəl bir məhəllə yaradılmışdır. Əminəm ki, bu parkın ətrafında gələcəkdə yeni yaşayış binaları da tikiləcəkdir. Belə layihələr vardır.

Dünyada bir neçə böyük park vardır. Onlardan biri də Gəncə parkıdır. Dünyanın beş ən böyük parkı arasında artıq Gəncə parkı da vardır. Bu, əlbəttə ki, bizim hamımızı – nəinki gəncəliləri, bütün Azərbaycan xalqını sevindirir. Çünki boş ərazidə iki il ərzində belə möhtəşəm parkın, Mərkəzin yaradılması gəncəlilərin öz diyarına olan məhəbbətinin əlamətidir. Mən sizi bütün bu uğurlar münasibətilə ürəkdən təbrik edirəm".

Abadlıq-quruculuq işlərinin bundan sonra da böyük vüsətlə davam etdiriləcəyini bildirən Prezident İlham Əliyev Gəncənin mədəni həyatının inkişaf amillərindən danışmışdır: "Gəncənin mədəni həyatı zəngindir. Həmişə belə olubdur. Gəncə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olmuşdur. Hazırda şəhərin mədəni həyatı kifayət qədər zəngindir. Yeni muzeylər açılır. Nizami Muzeyi, Məhsəti Gəncəvi Mədəniyyət Mərkəzi, ondan əvvəl bir neçə muzey açılmışdır, filarmoniyanın tikintisi davam edir. Hesab edirəm ki, işlər daha da sürətlə getməlidir. Bu məqsədlə əlavə tədbirlər görüləcək ki, filarmoniya da qısa müddət ərzində istifadəyə verilsin. Bilirəm ki, gəncəlilərin böyük arzusudur ki, filarmoniya olsun, olacaqdır. Artıq daş işləri başa çatmaq üzrədir. Hesab edirəm ki, biz bu il də olmasa, gələn il filarmoniyanın açılışını bərabər qeyd edəcəyik. Yəni, şəhərin çox zəngin və dolğun ictimai, mədəni həyatı vardır və bu, əlbəttə ki, məni sevindirir, çünki Gəncə Azərbaycanın qədim şəhəridir, ikinci şəhəridir, Nizami yurdudur. Əlbəttə ki, Gəncənin tarixi keçmişini, zəngin tarixi irsini qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur".

Gəncə şəhər ictimaiyyətinin, elmi müəssisələrin, idmançıların nümayəndələri çıxış edərək Prezident İlham Əliyevə gördüyü işlərə, apardığı siyasətə görə minnətdarlıqlarını bildirmiş, uğurlar arzulamışlar.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirmişdir: "Çox sağ olun, xoş sözlərə görə sizə minnətdaram. Siz doğrudan da çox vacib mövzulara toxundunuz. Dediyiniz sözlər bir daha onu göstərir ki, ölkəmiz hərtərəfli şəkildə inkişaf edir. Mən bunu dəfələrlə demişəm ki, Azərbaycan hərtərəfli şəkildə inkişaf edir. Hər bir sahə üzrə konkret proqram, planlar, iş planı vardır. Biz hər bir istiqamət üzrə inkişaf görürük. Mədəniyyət sahəsində – ölkə üzrə tikilən mədəniyyət sarayları, tarixi abidələrimizin bərpası, tariximizi, mədəniyyətimizi dünyaya çatdırmağımız, beynəlxalq forumlarda Azərbaycan haqqında dolğun, düzgün məlumatın çatdırılması – bütün bunlar Azərbaycanı dünyaya müasir və eyni zamanda, böyük tarixə, mədəniyyətə malik olan ölkə kimi təqdim edir.

Sənaye ilə bağlı siz tamamilə haqlısınız, Gəncənin çox böyük sənaye potensialı vardır. Gəncənin inkişaf planı elə tərtib edilməlidir ki, biz uzunmüddətli inkişaf strategiyamızı düzgün quraq. Çünki Gəncə də böyüyəcək, Azərbaycan da böyüyəcək, əhali də artır. Gəncədə əlbəttə ki, gələcəkdə bir milyon əhali yaşayacaqdır. Şəhərsalma strategiyası düzgün qurulmalıdır. Eyni zamanda, gələcəkdə iş yerləri ilə təmin etmək üçün əlavə tədbirlər görülməlidir. Biz bir milyondan artıq iş yeri yaratdıq. Ancaq əhali artır. Bax, keçən il Azərbaycanda 170 min uşaq doğulubdur. Əhali artır, artacaqdır. Ona görə, Azərbaycanın inkişafı, sənayenin inkişafı, şəhərsalma strategiyamız buna uyğun olmalıdır. Sənaye və iqtisadiyyat sahələrindən danışarkən deməliyəm ki, bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Son on il ərzində dünya miqyasında ən sürətlə inkişaf edən iqtisadiyyat Azərbaycan iqtisadiyyatı olmuşdur. Təsadüfi deyil ki, dünya iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycan 39-cu yerdədir. İki yüz ölkə arasında 39-cu yerdə olmaq çox böyük bir nailiyyətdir. Neft strategiyamız, qaz siyasətimiz bu gün dünyanın diqqətini cəlb edir. Bizim qəbul etdiyimiz qərarlar gələcəkdə regionumuzda və müəyyən mənada Avropada enerji təhlükəsizliyi məsələlərini həll edəcəkdir.

Bizim beynəlxalq mövqeyimiz birmənalıdır, çox prinsipialdır, qeyd etdiyiniz kimi, dünya birliyinin rəğbətini qazanıbdır. Bizə nəyə görə səs verdilər? Ona görə, gördülər ki, ədalət bizim tərəfimizdədir. Ona görə, gördülər ki, biz ədaləti müdafiə edəcəyik. Biz heç bir təzyiqə boyun əyməyəcəyik. Biz prinsipial, ədalətli mövqeni müdafiə edəcəyik və iki il ərzində Təhlükəsizlik Şurasında bunu da etdik.

Azərbaycanda hər bir sahə – təhsil, səhiyyə üzrə, ictimai proseslər çox müsbət istiqamətdə gedir. Siz qeyd etdiniz ki, müxtəlif forumlar keçirilir. Biz buna artıq öyrəşmişik. Amma demək olar ki, Azərbaycanda hər ay zirvə görüşləri, prezidentlər, dövlət, hökumət başçıları səviyyəsində tədbirlər, beynəlxalq forumlar keçirilir. Nizami Gəncəvi Beynəlxalq Cəmiyyətinin işi artıq genişlənir. Bu, nəinki bölgədə, dünya miqyasında böyük bir ictimai hərəkata çevrilmişdir. Madrid Klubu dünyanın mötəbər təşkilatlarından biridir, artıq Nizami Gəncəvi Cəmiyyəti ilə elə bil ki, vahid siyasət aparır.

Gəncədə tədbirlər keçirilir, gələcəkdə də keçiriləcəkdir. Gəncə 2016-cı ildə Avropa gənclərinin paytaxtı elan edilibdir. Bir sözlə, ölkəmizin strateji inkişafı ilə bağlı düzgün seçilmiş siyasət artıq özünü göstərir. Ona görə, ictimai proseslər də müsbət istiqamətdə gedir, Azərbaycan xalqı rahat, təhlükəsiz şəraitdə yaşayır. Biz indi dünyada gedən prosesləri izləyirik. Yaxın ətrafda hansı hadisələr baş verir. Bu barədə danışmaq istəmirəm. Amma biz bu gün informasiya əsrində yaşayırıq. Hər kəs hər şeyi görür, bilir. Bizim yerləşdiyimiz bölgədə proseslər mürəkkəbdir. Ancaq Azərbaycan bir sabitlik, inkişaf adasıdır, həmrəylik diyarıdır. Bu, bizim ən böyük üstünlüyümüzdür. Humanitar forumlar, Mədəniyyətlərarası Dialoq forumları, bu gün Azərbaycan artıq dünya miqyasında milli və dini münasibətlər məsələlərinin həllində nümunə ölkə kimi göstərilir. Əslində bu, həmişə belə olubdur. Azərbaycan xalqı həmişə xeyirxah, dözümlü xalq olubdur. Ancaq bunu dünyada bilmirdilər. Biz bunu dünyaya çatdırdıq. Ona görə, biz gələcəkdə ölkəmizin əlbəttə ki, uğurlu inkişafını təmin edəcəyik, ancaq müxtəlif tədbirlərlə Azərbaycan haqqında dünyaya daha da dolğun məlumat çatdırmalıyıq. Bunların içərisində ən gözəl tədbirlər Azərbaycanda keçirilən tədbirlərdir. Çünki son on il ərzində mən bildiyiniz kimi, dəfələrlə xaricdə müxtəlif forumlarda, tədbirlərdə, konfranslarda Azərbaycan haqqında danışmışam, reallıqları təqdim etmişəm. Əlbəttə, bunun da böyük əhəmiyyəti vardır. Ancaq yenə də bəziləri fikirləşir ki, Prezident gəlib öz ölkəsini tərifləyir. Amma Azərbaycana, Gəncəyə, başqa şəhərlərə gələndə bunu artıq öz gözləri ilə görürlər ki, Azərbaycan necə ölkədir. Azərbaycanın uğurlu inkişafı deyə bilərəm ki, bəzilərini qıcıqlandırır, bəzilərini, necə deyərlər, paxıllıq hisslərinə sürükləyir. Bu da inkişafın və uğurun qiymətidir. Eybi yoxdur, qoy həmişə bizə paxıllıq etsinlər ki, biz həmişə irəliyə gedək".

Sonra dövlətimizin başçısı Heydər Əliyev Mərkəzinin həyətində ağac əkmişdir.

Gəncə şəhərinə səfəri çərçivəsində Prezident İlham Əliyev Gəncə Olimpiya Parkının təməlqoyma mərasimində, Məhsəti Gəncəvi Mərkəzinin və Nizami Gəncəvi Muzeyinin açılışlarında, "DET-AL Alüminium" MMC-nin Detal Alüminium Kompleksinin alüminium yarımfabrikat istehsalı zavodlarının işə salınması tədbirində, Yeni tikilmiş Gəncə dairəvi avtomobil yolunun açılışında iştirak etmiş, Gəncə Qala Qapıları – Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi, "ASAN xidmət" mərkəzi, Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi və "VEGO" otelində yaradılmış şəraitlə tanış olmuşdur

Dövlətimizin başçısı Olimpiya Parkının və digər sosial obyektlərin inşasının yüksək səviyyədə aparılması üçün müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərinə səfərini başa çatdıraraq Göygöl rayonuna gəlmişdir.

Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Göygöl şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygölə səfəri çərçivəsində Bayraq Meydanı Kompleksinin açılışında iştirak etmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ayulduzlu bayraq ötən əsrin sonlarında yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilmişdir. Bu tarixi iş ümummilli liderin dahiyanə ideyalarından biri idi. Ölkəmiz yenidən müstəqilliyini bərpa etdikdən sonra bu bayrağın ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılması bunun əyani təzahürüdür. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları və mötəbər məclislərində qürurla dalğalanır. Vətənə və dövlətin atributlarına hörmət və ehtiram ulu öndərin bizə ən böyük əmanətidir. Hər bir azərbaycanlı dövlət bayrağını özünün qürur mənbəyi hesab edir.

Prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşması da bunu şərtləndirən əsas səbəblərdən biridir. Paytaxtla yanaşı, respublikanın bölgələrində də bayraq meydanlarının inşası dövlətin bu sahədə həyata keçirdiyi siyasətin nəticəsidir.

Göygöl rayonunda salınan Bayraq Meydanı kompleksində ucaldılan üçrəngli bayrağımız, quraşdırılan gerbimiz möhtəşəmliyi ilə diqqəti cəlb edir və hər kəsin qəlbində iftixar və qürur hissləri oyadır. Kompleksdə yaradılan şərait, həmçinin "Azərbaycan dövlətinin rəmzləri muzeyi" milli atributlarımızın tarixi və onların gələcək nəsillərə çatdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevə məlumat verilmişdir ki, kompleksin tikintisinə 2012-ci ilin may ayında başlanmışdır. Meydanda 50 metr yüksəkliyə qaldırılmış dövlət bayrağı rayonun hər yerindən aydın görünür. Kompleksdə geniş əraziyə malik gəzinti zolaqları yaradılmışdır.

Nəfis şəkildə işlənən dövlət gerbi kompleksi daha da gözəlləşdirir.

Prezident İlham Əliyev "Azərbaycan dövlətinin rəmzləri muzeyi"ndə də olmuşdur. Muzeydə Azərbaycanın müxtəlif dövrlərdəki gerbləri, o cümlədən Nuxa, Yelizavetpol, Naxçıvan, Quba, Şuşa, Şamaxı, Lənkəran, Zaqatala qəzaları və Bakı quberniyasının, Azərbaycan SSR-in, Azərbaycan İctimai Şuralar Cəmiyyətinin və müstəqil Azərbaycanın gerbinin fotoları nümayiş etdirilir. Burada Azərbaycanın Səfəvilər, Ağqoyunlular, Qaraqoyunlular və Eldəgizlər dövlətləri dövründəki, həmçinin 1918-1920-ci illər və 1991-ci ildəki xəritələri də vardır.

Dövlətimizin başçısı öz çıxışlarında dəfələrlə Azərbaycanda sosial quruculuq işlərinin geniş vüsət almasından danışmış, dövlətimizi xaraktercə "sosial dövlət" adlandırmışdır. Bu mənada, ölkə başçısının regionlara budəfəki səfəri də xalqın rifahının yüksəldilməsinə xidmət edən neçə-neçə yeni obyektin istifadəyə verilməsi ilə əlamətdar olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygölə içməli suyun verilməsi mərasimində, Olimpiya İdman Kompleksinin və Heydər Əliyev Mərkəzinin açılışlarında iştirak etmiş, Gənclər Mərkəzi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, Göygöl rayonunun idmançıları beynəlxalq və respublika səviyyəli idman yarışlarında mühüm nailiyyətlər qazanmışlar. Hazırda rayonda idmanın müxtəlif növləri üzrə 2 Avropa və 14 dünya çempionu vardır.

Göygöl Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev çıxışında demişdir: "Göygöl Olimpiya İdman Kompleksi Azərbaycanda tikilən sayca 41-ci regional kompleksdir. Artıq Bakıdan başqa 41 şəhərdə idmanla məşğul olmaq üçün gözəl imkanlar vardır. Bakıda isə Avropa Oyunlarına hazırlıq gedir. Yeni idman obyektləri tikilir – Olimpiya Stadionu, Su İdmanı Sarayı, Stend Atıcılığı Mərkəzi, Gimnastika Kompleksi. Əvvəllər tikilmiş idman obyektləri təmir edilir. Biz gələn il Avropa Oyunlarını yüksək səviyyədə keçirməliyik və əminəm ki, keçirəcəyik. Ona görə, indi Göygöldə idmanla bağlı problemlər öz həllini tapacaqdır. Burada gözəl məşq prosesi təşkil edilməlidir. Eyni zamanda, yığma komandalarımız da gəlib burada təlim-məşq toplantılarında iştirak etməlidirlər. Bir sözlə, əminəm ki, Göygöl Olimpiya Kompleksinin gözəl gələcəyi olacaqdır".

Tariximizin şərəfli bir dövrü Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalq və dövlət qarşısında əvəzsiz xidmətləri nəzərə alınaraq paytaxt Bakı ilə yanaşı, bölgələrdə də dahi şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi üçün çox mühüm işlər görülmüşdür. Göygöl rayonunda möhtəşəm Heydər Əliyev Mərkəzinin yaradılması dahi siyasi xadimin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan daha bir mühüm addımdır. Mərkəz və onun yerləşdiyi Heydər Əliyev parkı indi Göygölün ən gözəl məkanlarından biridir.

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev parkı ilə tanış olmuşdur.

Dövlətimizin başçısına burada aparılan abadlıq və yenidənqurma işləri barədə məlumat verilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən parkdakı Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzi, kinoteatr və Uşaq əyləncə mərkəzi ən müasir standartlara cavab verir. Burada rayon sakinlərinin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılmışdır. Parkdakı Yaşıl Teatr bərpa olunmuşdur, stolüstü oyunlar zalı fəaliyyət göstərir və uşaqlar üçün xüsusi attraksionlar quraşdırılmışdır.

Mərkəzin foyesində dahi şəxsiyyətin büstü qoyulmuşdur. Burada ulu öndərin siyasi irsini araşdırmaq məqsədi ilə Heydər Əliyev Muzeyi yaradılmışdır. Muzeydə ümummilli liderin uşaqlıq və gənclik illərinə aid şəkillər, həmçinin müxtəlif dövrlərdə çəkilən digər fotolar böyük maraqla qarşılanır. Muzeyin hər bir eksponatı təsdiqləyir ki, tarix yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur və ulu öndərin taleyi əslində bütün Azərbaycan xalqının taleyidir. Heydər Əliyevin misilsiz xidmətləri milli tərəqqi, qurtuluş və inkişaf salnaməsinə çevrilmişdir. Muzeydə təqdim olunan materiallardan da görünür ki, müstəqil Azərbaycan dövlətinin banisi olan Heydər Əliyevin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətimizin dəyərlər sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılması istiqamətində mühüm tədbirlər görülür. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti 2003-cü ildən başlayaraq uğurlu nəticələrlə yadda qalmışdır. 2005-2009-cu illəri əhatə edən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" bu proseslərdə çox mühüm rol oynamışdır. Hazırda həyata keçirilən "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" bu tədbirlərin məntiqi davamıdır. Bu gün gənclərin vətənpərvərlik və dövlətçilik prinsipləri, həmçinin tarixi-mədəni keçmişimizə, milli mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyəsi prioritet istiqamətlərdəndir. Bölgələrdə gənclər üçün müasir tələblərə cavab verən sosial infrastruktur obyektlərinin tikintisi də bu amala xidmət edir. Göygöldə Gənclər Mərkəzinin yaradılması da gənclərin rayonun həyatında fəal mövqe tutmalarına yeni stimul vermək məqsədi daşıyır.

Gənclər Mərkəzi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verilmişdir ki, rayon gənclərinin fəallığının artırılması, onların intellektual potensialının üzə çıxarılması məqsədilə yaradılan mərkəz indi gənclərin ən çox üz tutduqları məkandır.

BİNƏQƏDİ

Təsisçi:
Binəqədi Rayon İcra Hakimiyyəti

Baş redaktor:
Rüfət Mərdanov

Ünvan:
AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

Xalqımızın qəhrəmanlıq salnaməsi

20 Yanvar faciəsinin 24-cü ildönümü münasibətilə anım mərasimi

MƏHƏBBƏT ORUCOV

Yanvarın 17-də Binəqədi Rayon İcra Hakimiyyətinin inzibati binasında 20 Yanvar faciəsinin 24-cü ildönümü münasibətilə anım mərasimi keçirildi.

Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Bakı Şəhər İcra Hakimiyyətinin məsul işçisi Ramiz Quliyev, RİH başçısının müavinləri, RİH başçısı Aparatının məsul işçiləri, rayon hüquq-mühafizə orqanları və icra strukturlarının rəhbərləri, hərbi qulluqçular, rayon ictimaiyyətinin nümayəndələri və 20 Yanvar şəhidlərinin ailələri, eləcə də qanlı olayda əlil olmuş şəxslər iştirak edirdilər.

Mərasim faciə qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov hadisəni Azərbaycan xalqının tarixinə yazılmış şanlı səhifə kimi səciyyələndirdi və SSRİ rəhbərliyinin dinc, əliyalın insanlara qarşı qırğın törətməsini zorakılıq üzərində qurulmuş bir imperiyanın Azərbaycan xalqının əzmkarlığı və iradəsi qarşısında mənəvi cəhətdən gücsüzlüyünü vurğuladı.

Xaləddin İsgəndərov bildirdi ki, 20 Yanvar xalqımızın qəhrəmanlıq salnaməsi və qürur mənbəyidir. Həmin günləri yada salan icra başçısı Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizədən danışdı və qeyd etdi ki, 1990-cı il hadisəsi nə qədər faciəli olsa da Azərbaycan xalqının iradəsini, milli qürurunu, əzmini qıra bilmədi: "Bu qanlı hadisədən illər keçməsinə baxmayaraq, xalqımız o müdhiş gecəni daim xatırlayır, faciəni törədənlərə dərin nifrətini bildirir. 20 Yanvar faciəsi hər il ümumxalq hüzn günü kimi geniş qeyd olunsa da, xalqımız şəhidlik zirvəsinə baxaraq, başını dik tutmalıdır. Çünki Vətən və millət şəhidləri ilə ucalır".

X.İsgəndərov 20 Yanvar hadisələrindən dərhal sonra Vətənini və xalqını böyük məhəbbətlə sevən ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsinin, yerli və xarici jurnalistlər qarşısında keçirdiyi mətbuat konfransının əhəmiyyətini xüsusi vurğuladı: "Ümummilli lider Heydər Əliyev heç bir təhlükə və hədədən çəkinməyərək bu faciəni törədənlərin adlarını açıq şəkildə çəkib onların cəzalandırılmasını tələb etmişdir. Məhz Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra onun təşəbbüsü ilə ilk dəfə bu hadisəyə hüquqi-siyasi qiymət verildi. Şəhidlərin adlarının əbədiləşdirilməsi, onların ailə üzvlərinə hər cür yardım göstərilməsi üçün ulu öndər Heydər Əliyevin imzaladığı sərəncamlar Azərbaycanın azadlığı uğrunda canlarını qurban vermiş insanların xatirəsinə böyük ehtiramdır". Xaləddin İsgəndərov çıxışında 20 Yanvar hadisələrində həyatını fəda etmiş şəhidlərimizin qəhrəmanlığının Azərbaycanın gələcək inkişafında müstəsna yeri olduğunu bildirdi: «Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Bu fədakarlığı və iradəsi sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan qısa müddət ərzində müstəqil, sürətlə inkişaf edən dövlət kimi dünya birliyində özünün layiqli yerini tutmağa nail oldu.

Bu gün ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin inamla həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində Azərbaycan böyük uğurlara imza atıb".

RİH başçısı çıxışında şəhid ailələrinə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğıdan da danışdı və şəhidlərimizə Allahdan rəhmət dilədi.

Tədbirin bədii hissəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyorlarının ifasında «20 Yanvar» adlı ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Mərasimdən sonra rayon icra hakimiyyətinin inzibati binasında 20 Yanvar şəhidlərinin ailələri və əlillər ilə ayrıca görüşən Xaləddin İsgəndərov bir daha bütün xalqımızın onlarla qürur duyduğunu diqqətə çatdırdı. Görüşdə şəhid ailələrinin problemləri ilə maraqlanan icra başçısı bununla bağlı bütün məsələlərin nəzarətdə saxlanılacağını qeyd etdi.

"20 Yanvar Cəmiyyəti"nin sədri Ağarza Xankişiyev şəhidlərin ailələrinə və əlillərə Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən göstərilən daimi diqqət və qayğıya görə onların adından RİH başçısına minnətdarlığını bildirdi.

Tədbirdən sonra 20 Yanvar əlillərinə və şəhid ailələrinə maddi yardım göstərildi.

Şəhidlərin xatirəsi yad edilib

Yanvarın 20-də Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhidlərimizin xatirəsinə ucaldılmış "Şəhidlər xiyabanı" abidə kompleksi ziyarət edilmiş, 20 Yanvar hadisələrinin qurbanları anılmışdır.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşları və rayonun rəhbər işçiləri, YAP Binəqədi rayon təşkilatının üzvləri, təhsil, səhiyyə və mədəniyyət işçiləri, ictimai təşkilatların təmsilçiləri, ictimaiyyətin digər nümayəndələri iştirak etmişlər.

"Güllə yağışı" abidəsi önündə...

SİYAVUŞ ƏMİRLİ

Azərbaycanın müstəqillik uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar hadisələrindən 24 il ötsə də, xalqımız o müdhiş gecəni qətiyyən unutmur, faciənin baiskarlarını hiddətlə pisləyir. Bu günlərdə Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən "Güllə yağışı" abidəsinin önündə keçirilən anım tədbirində 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Binəqədi RİH başçısı Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri, 20 Yanvar şəhidlərinin ailə üzvləri, faciədə əlil olmuş şəxslər, müəllimlər və orta məktəb şagirdləri iştirak ediblər.

Anım tədbirində çıxış edən rayon icra hakimiyyəti başçısının birinci müavini İlqar Süleymaov 20 Yanvar faciəsinin xalqımızın qan yaddaşında əbədi həkk olunduğunu bildirib. Qeyd edib ki, sovet ordusu qarşısına silahsız, əliyalın çıxaraq mədrliklə həlak olmuş 20 Yanvar şəhidlərinin misilsiz qəhrəmanlığı xalqımız tərəfindən unudulmur.

Daha sonra çıxış edən Binəqədi RİH başçısının müavini Aygün Əliyeva demişdir ki, Azərbaycanın azadlığı yolunda şəhid olmuş 20 Yanvar şəhidlərinin şərəfli ömür yolu və vətənpərvərliyi indiki və gələcək nəsillər üçün layiqli örnəkdir: «20 Yanvar Azərbaycan tarixinə qanla yazılmış şərəfli bir səhifədir. Bu gün təkcə faciə yox, həm də mili qürur günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşamış xalqımızın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir».

A.Əliyeva bildirmişdir ki, 20 Yanvar faciəsinə ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra əsl siyasi-hüquqi qiyməti vermək mümkün olmuşdur: «1990-cı ilin 20 Yanvar hadisələri ilə bağlı xalqın səsinə ilk səs verən məhz ulu öndər Heydər Əliyev olmuşdur. Ümummilli lider yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, təcavüzə kəskin etirazını bildirmiş, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu ittiham edərək qoşunların Bakıdan çıxarılmasını tələb etmişdir. Ulu öndər bununla bir daha Vətən, xalq qarşısında vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir».

Azadlığa aparan qanlı yol

ESMIRA

Yanvarın 17-də 3 saylı tam orta məktəbdə 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirildi.

Şuşa Musiqili Dram Teatrının direktor müavini, yazıçı-dramaturq Elnurə Abdullayeva 1990-cı ilin yanvarında sovet imperiyasının qoşun birləşmələrinin Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda mübarizəyə qalxmış dinc əhaliyə qarşı törətdiyi cinayətlərdən danışaraq bildirdi ki, biz 20 Yanvarı milli matəm, hüzn günü kimi qeyd edir, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycan xalqına qarşı törədilmiş cinayət, tökülmüş nahaq qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi xalqımızın müstəqilliyi uğrunda mübarizə əzmini qıra bilmədi.

Məktəbin müəlliməsi Kifayət Həsənova 20 Yanvar şəhidlərinin misilsiz qəhrəmanlığı xalqımız tərəfindən unudulmur.

Daha sonra çıxış edən Binəqədi RİH başçısının müavini Aygün Əliyeva demişdir ki, Azərbaycanın azadlığı yolunda şəhid olmuş 20 Yanvar şəhidlərinin şərəfli ömür yolu və vətənpərvərliyi indiki və gələcək nəsillər üçün layiqli örnəkdir: «20 Yanvar Azərbaycan tarixinə qanla yazılmış şərəfli bir səhifədir. Bu gün təkcə faciə yox, həm də mili qürur günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşamış xalqımızın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir».

A.Əliyeva bildirmişdir ki, 20 Yanvar faciəsinə ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra əsl siyasi-hüquqi qiymət vermək mümkün olmuşdur: «1990-cı ilin 20 Yanvar hadisələri ilə bağlı xalqın səsinə ilk səs verən məhz ulu öndər Heydər Əliyev olmuşdur. Ümummilli lider yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəlmiş, təcavüzə kəskin etirazını bildirmiş, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu ittiham edərək qoşunların Bakıdan çıxarılmasını tələb etmişdir. Ulu öndər bununla bir daha Vətən, xalq qarşısında vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir».

20 Yanvar faciəsi ilə bağlı aksiya

M.ORUCOV

Ötən həftə Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının təşəbbüsü ilə 20 Yanvar faciəsinin 24-cü ildönümünə həsr olunmuş «Qanlı Faciə – Məğrurluq Tarixi!» adlı aksiya təşkil edilib. Aksiyanın keçirilməsində məqsəd dünya ictimaiyyətini, xüsusilə də aparıcı dövlətlərin parlament üzvlərini 20 Yanvar hadisələri haqda məlumatlandırmaq, onlara bu hadisəni törədənlər haqda internet vasitəsilə ətraflı məlumat vermək olub.

20 Yanvar faciəsi ilə bağlı məlumatlar Fransa, Rusiya Federasiyası, Böyük Britaniya, Türkiyə, Amerika Birləşmiş Ştatlarının parlament üzvlərinə, beynəlxalq və regional təşkilatların strukturuna daxil olan qurumların elektron ünvanlarına göndərilib. Ümumilikdə «e-mail hücum» nəticəsində müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələrinə türk, rus, ingilis dillərində tərtib edilmiş 120 mindən çox elektron məktub göndərilib. «Twitter» sosial şəbəkəsində, Böyük Britaniya, Rusiya, Fransa və Türkiyə dövlət başçılarının rəsmi səhifələrində 20 Yanvar faciəsi ilə bağlı məlumatlar paylaşılıb.

Bununla yanaşı, 1990-cı il yanvarın 20-də sovet ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi vandalizm aktı haqda məqalə müxtəlif xarici dillərə tərcümə olunaraq, dünyanın 30 aparıcı ölkəsinin 100-dən çox tanınmış mətbuat orqanına göndərilib.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında 20 Yanvar faciəsinə həsr olunmuş sərgi təşkil edilib.

hesabat

Binəqədi qəsəbəsinin infrastrukturu müasirləşdirilir

MAİL AĞAXANOV

Binəqədi Rayon İcra Hakimiyyətinin Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin 2013-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir. Tədbirdə Binəqədi RİH başçısınını müavini Vüsar İsmayılov, Aparatın şöbə müdiri Ramiz Göyüşov, "SMX-1646" xidmətinini rəisi Anar Səfərov, həmçinin qəsəbə sakinləri iştirak ediblər.

Qəsəbənin icra nümayəndəsi Ramiz Həsənzadə hesabat məruzəsində 2013-cü ilin yekunlarının bu inzibati ərazi dairəsi üçün də qənaətbəxş olduğunu, bir sıra layihələrin həyata keçirildiyini diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, son illər yeni yaşayış sahələrinin salınması və əhalinin sayının durmadan artması qəsəbə ərazisində yolla-

rın çəkilməsini, sosial obyektlərin inşasını, kommunikasiya xətlərinin bərpası və yenidən qurulmasını, bir sözlə, yeni infrastrukturun formalaşdırılmasını zəruri etmişdir.

R.Həsənzadənin sözlərinə görə, Binəqədi RİH-in dəstəyi ilə qəsəbə ərazisində sosial infrastrukturun müasirləşdirilməsi, yolların təmiri, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində xeyli işlər görülmüşdür: «Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun təşəbbüsü, yaxından dəstəyi ilə qəsəbədə yerləşən 179 saylı orta məktəbin qarşısında – mövcud yol kəsişmələrinin altından keçməklə eni 4.75 metr, uzunlugu 70.1 metr olan yeni piyada kecidinin tikintisi başa çatdırılaraq sakinlərin istifadəsinə verilmişdir. 182 saylı orta məktəbin ərazisində 1300 şagirdlik əlavə korpusun tikintisinə başlanılmışdır və hazırda inşası davam etdirilir. Qəsəbənin mərkəzində 112 il əvvəl tikilmiş Binəqədi Mərkəzi Mədəniyyət evində əsaslı təmir və yenidənqurma işlərinə başlanılmışdır. Binəqədi qəsəbə icra nümayəndəliyinin yeni inzibati binasının tikintisi də başa çatmaq üzrədir».

İcra nümayəndəsi qeyd etmişdir ki, ötən il qəsəbə ərazisində 71.545 metr uzunluğunda kanalizasiya və 100.167 metr uzunluğunda müasir standartlara cavab verən su xətləri çəkilmişdir: «Qəsəbənin "Gülüstan"yaşayış massivinin 7, 8, 9, 10, 11 və 12-ci döngələrinə, ümumillikdə, 30 min kvadratmetr asfalt örtüyü döşənmiş, 3 min metr uzunluqda küçə işıqları kabelləşdirilmişdir: Mehdiabad-Binəqədi və Binəqədi-Novxanı istiqamətində 4200 metr məsafədə işıqlandırma sistemi quraşdırılmışdır və bu işlər davam etdirilir. 2013-cü ildə qəsəbənin III mədən ərazisində 5, "Gülüstan" yaşayış massivində 2, İsfahani kücəsində 1, I və II mədən ərazilərində ümumillikdə 10 transformator quraşdırılmışdır. Həmçinin, ötən il ərzində qəsəbə daxilində 23141 metr qaz xətti çəkilmiş, 824 ədəd smart-kart tipli qaz sayğacları quraşdırılmışdır».

R.Həsənzadə vurğulamışdır ki, Azərbaycan Milli Elmlər Akademiyası, Binəqədi Rayon İcra Hakimiyyəti və Regionların İnkişafı İctimai Birliyinin təşəbbüsü ilə Binəqədi Dördüncü dövr fauna və florası qəbiristanlığında 3 mərhələdə aparılan tədqiqat işləri davam etdirilir. Yeni inşa olunacaq Binəqədi flora və fauna muzeyinin ərazisində 5 metr dərinliyə qədər sahə süxurlardan təmizlənmiş və 20 mindən çox flora və fauna nümunələri aşkar edilmişdir.

İcra nümayəndəsi qəsəbə sakinlərini narahat edən məsələlər barədə də geniş məlumat vermişdir. Bildirilmişdir ki, qəsəbənin I, II və III mədən ərazilərində, həmcinin İsfahani, C.Cabbarlı, Ə.Qarayev, M.Ələkbərov, habelə «Zəngəzur» şadlıq sarayı ilə üzbəüz yaşayış massivlərində kanalizasiya xətlərinin çəkilişinə ehtiyac var: «Qəsəbə ərazisində yerləşən Bakı Poladtökmə zavodunun ventilyasiya və filtrasiya sistemlərinin işləməməsi sakinlərin ciddi narazılığına səbəb olan məsələlərdəndir. Eyni zamanda, qəsəbə sakinləri şəhər mərkəzindən M.Ə.Rəsulzadə qəsəbəsinə hərəkət edən 79 saylı avtobus marşrutunun Binəqədi qəsəbəsi "Elektrik" muzeyinə qədər uzadılmasını xahiş edirlər. Qəsəbədə əhalini narahat edən digər problem bağça və orta məktəblərin sayının az olması ilə bağlıdır. Əhalisinin sayı 60 min nəfərə çatan qəsəbədə yeni bağça və orta məktəblərin inşasına ehtiyac var».

R.Həsənzadənin sözlərinə görə, 2013-cü ildə aztəminatlı, şəhid və qaçqın ailələrinin sosial qayğıları diqqət mərkəzində saxlanılmış, ümumilikdə 822 ailəyə müxtəlif yardımlar edilmişdir.

Gələcək planlardan söz açan icra nümayəndəsi Binəqnədi RİH-in 2014-cü il ücün tərtib etdiyi tədbirlər planına əsasən, qəsəbənin sosial-iqtisadi inkişafı istiqamətində bir sıra layihələrin həyata keçiriləcəyini diqqətə çatdırmışdır. Yaxın perspektivdə qəsəbədə 240 nəfərlik uşaq bağçasının, habelə 205 saylı orta məktəbin həyətində əlavə korpusun inşası, Binəqədi İdman Kompleksi ilə üzbəüz ərazidə isə müasir istirahət və əyləncə parkının salınması istiqamətində işlərə başlanılacaqdır.

Sonra hesabat ətrafında müzakirələr olub.

Hesabat yığıncağında Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov nümayəndəliyin 2013-cü ildə gördüyü işlərə münasibət bildirərək onun fəaliyyətində nöqsan və çatışmamazlıqların olduğunu qeyd edərək qəsəbə əhalisinin müraciətlərinə baxılmasında bir sıra hallarda qusurlara yol verildiyini vurğulayıb.

Daha sonra V.İsmayılov cari ildə qəsəbənin sosial-iqtisadi inkişafında görüləcək tədbirlərdən danışıb.

Hesabat yığıncağının yekununda müvafiq qərar qəbul olunub.

Xocəsən sakinlərini narahat edən məsələlər həllini tapır

S.ƏMİRLİ

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyinin 2013-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Tədbirdə rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Aparatın şöbə müdirləri, Xocəsən bələdiyyəsinin sədri və qəsəbə sakinləri iştirak ediblər.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbəsi üzrə nümayəndəsi Əlikram Haqverdiyev hesabat məruzəsində ötən il bir sıra layihələrin həyata keçirildiyini diqqətə çatdırıb. «2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramı» çərçivəsində Binəqədi RİH-in dəstəyi ilə qəsəbə ərazisində sosial infrastrukturun müasirləşdirilməsi, yolların təmiri, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində xeyli işlər görülüb. Hesabat dövründə qəsəbə ərazisində 13797 paqonometr qaz, 3870 paqonometr su, 510 metr kanalizasiya xətti çəkilib, 96 400 kvadratmetr əraziyə asfalt örtüyü döşənib: «Sulutəpə qəsəbəsində mədən yoluna asfalt örtüyü döşənib, küçədə müasir işıqlandırma sistemi qurulub. «Koka-kola» şirkəti istiqamətində yolun ətrafında olan qanunsuz tikililər sökülərək yol genişləndirilib. Həmin küçənin 700 metrlik hissəsi asfaltlanıb, müasir işıqlandırma sistemi qurulub, piyadaların təhlükəsiz gediş-gəlişi üçün səkilər inşa olunub. Bələdiyyənin və 217 saylı orta məktəbin qarşısından keçən 1600 metr uzunluğunda, habelə Bakı-Astara yolundan hərbi hissəyə gedən 2000 metr uzunluğunda yola asfalt örtüyü döşənib».

İcra nümayəndəsi həmçinin bildirib ki, Bakı-Şamaxı yolunun qəsəbəyə aid hissəsində, habelə «Pepsi-Kola» şirkətindən Hökməli dairəsinə kimi olan ərazidə sakinlərin vaxtlarını səmərəli keçirmələri üçün müasir istirahət parkı salınıb. Parkda uşaqlar üçün sadə atraksionlar quraşdırılıb, vətəndaşların istirahəti üçün oturacaqlar qoyulub. Parkın ətrafındakı ərazilərdə fərdi yaşayış evlərinin dam örtükləri dəyişdirilib, divarları rənglənib, hasarları hörülüb, mişardaşı ilə üzlənib. Bütün evlərin giriş-çıxış qapıları və darvazaları yenisi ilə əvəz edilib.

Əlikram Haqverdiyev vurğuladı ki, 2013-cü il ərzində Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlikdən Binəqədi Rayon İcra Hakimiyyətinin "Sakinlərin Müraciət Xidməti– 1646"ya 259 müraciət daxil olub. Həmin müraciətlərin 61-i su və kanalzasiya, 147-si qaz təchizatı, 10-u isə yağıntılardan sonra həyətlərə suyun dolması ilə bağlı olub. Daxil olmuş müraciətlərin hamısı qısa zamanda həllini tapıb.

Tədbirdə çıxış edən Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov bildirib ki, ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində son illər Binəqədi rayonunun qəsəbələrinin problemləri həllini tapır. Xocəsən qəsəbəsinin də sürətlə inkişaf etdiyini deyən V.İsmayılov burada bir sıra mühüm layihələrin həyata keçirldiyini diqqətə çatdırıb: «2012-ci ilin aprel ayından başlayraq rayon ərazisində tikinti və quruculuq işləri daha geniş vüsət alıb. Küçə və meydanlar, parklar abadlaşdırılıb, ayrı-ayrı ictimai binalarda, əsas yollarda, qəsəbədaxili küçələrdə təmir işləri aparılıb. «Abad məhəllə»lərin salınması da sakinlərin ürəyincə olub».

V.İsmayılov uğurlu nəticələrlə yanaşı, qəsəbədəki mövcud problemlərdən və qarşıda duran vəzifələrdən də ətraflı söz açıb: «Binəqədi Rayon İcra hakimiyyətinin başçısı cənab Xaləddin İsgəndərovun təşəbbüsü və dəstəyi ilə Xocəsən qəsəbəsində həyata keçirilən abadlıq-quruculuq, yaşıllaşdırma və digər tədbirlərin bir məqsədi var: sakinlərin rahatlığını təmin etmək, problemlərinin həllinə nail olmaq. İcra nümayəndələri, bələdiyyə sədrləri qəsəbədəki mövcud problemlərin həllinə xüsusi diqqətlə yanaşmalı, daim sakinlərin arasında olmalıdırlar».

Hesabat yığıncağında qəsəbə sakinlərini maraqlandıran suallar da ətraflı cavablandırılıb. Sakinlərdən Səxavət Zülfiyev, Ağayar Məmmədov, Allahverdi Mirzəyev, Mahir Kərimov və başqaları çıxışlarında həyata keçirilən işlərə görə rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Quruculuq işləri xeyli sürətlənib

M. ORUCOV

Binəqədi Rayon İcra Hakimiyyətinin 2 Saylı Sahə İnzibati Ərazi Dairəsində (SİƏD) abadlıq işləri geniş vüsət alıb. Rayon icra hakimiyyəti SİƏD-in ərazisinə daxil olan 6 və 9-cu mikrorayonlarda yeni abad məhəllələrin yaradılması barədə səlahiyyətli qurumlara xüsusi göstəriş verib. Bu barədə qəzetimizə 2 saylı sahə inzibati ərazi dairəsindən məlumat verilib.

Məlumatda bildirilir ki, ötən dövr ərzində aparılan abadlıq-quruculuq işləri sayəsində ərazidə yerləşən yaşayış binalarının əksəriyyətinin zirzəmisində təmir işləri başa çatıb, bir çox binaların dam örtükləri yenilənib, köhnə liftlər yenisi ilə əvəz olunub. Bundan əlavə, mövsümlə əlaqədar ərazidəki ağaclar budanıb, yaşıllıq sahələri artırılıb və məhəllələrdə sakinlərin istirahəti üçün oturacaqlar qoyulub.

Məlumatda qeyd edilib ki, hazırda 2 saylı SİƏD-də MKTB-yə məxsus 98 bina və 20 kooperativ ev mövcuddur: "Ötən müddət ərzində təkcə 79 saylı MKİS-in ərazisində 2 məhəllədaxili park yaradılıb. Hazırda isə 19 və 20 saylı yaşayış binalarının qarşısında müasir tələblərə cavab verən abad məhəllə yaradılır. Artıq adı çəkilən binaların fasadlarında yenilənmə işləri başa çatmaq üzrədir. Digər abad məhəllələrdə olduğu kimi, burada da sakinlərin istirahəti üçün bütün şərait yaradılacaq. Artıq küçələrin işıqlandırılması tam şəkildə həyata keçirilib. Məhəllədaxili yollar, demək olar ki, bütünlüklə asfaltlanıb.

Ərazidəki çoxmərtəbəli binalarda 293 lift vardır. Onlardan bəzilərinin istismar müddəti başa çatıb. Bu səbəbdən 89 köhnə lift yenisi ilə əvəz olunub, bəziləri isə təmir edilərək əhalinin istifadəsinə verilib. Ərazidəki mənzillərin 94 faizi isə özəlləşdirilib.

Sanitar qaydalara tam nail olmaq üçün gündəlik təmizlik işləri ciddi nəzarətə götürülüb. Zibilin yığıldığı meydançalara tutumu 1000 litr olan 60 ədəd əlavə konteyner yerləşdirilib.

Eyni zamanda, ərazidəki yaşayış binalarının zirzəmisindən keçən su və kanalizasiya xətləri əsaslı təmir olunub. Qışa hazırlıq dövründə mənzillərin isidilməsi ilə bağlı ciddi işlər görülüb. Elə bunun nəticəsidir ki, müəyyən istisnalar olmaqla, bu qış ərazidəki bütün binalar istiliklə təmin edilib.

Kitabsevərlərin sayı artır

ESMİRA ORUCOVA

Binəqədi rayonunda fəaliyyət göstərən Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) öz işini müasir dövrün tələblərinə uyğun qurmağa, oxucularının arzu və istəklərini yerinə yetirməyə çalışır. İlin əvvəlindən MKS-in kitab fondu əhəmiyyətli dərəcədə artaraq 481376 nüsxəyə yüksəlib. Müqayisə üçün bildirək ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 331383 nüsxə təşkil edib.

Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin nəzdində olan MKS rayondakı 8 kitabxananın bazasında yaradılıb; tərkibində oxuculara xidmət, uşaq, informasiya resursu, komplektləşdirmə, metodika və biblioqrafiya şöbələri fəaliyyət göstərir. Ötən ilin yekunlarına əsasən, kitabxananın oxucularının sayı 38787 nəfər olub. Kitabların daxilolma sayı 261976, verilmə sayı isə 737437 nüsxə təşkil edib. Kitabxana 8 elektron daşıyıcı ilə təmin olunub.

2013-cü ildə MKS-ə M.F.Axundov adına Milli Kitabxana, Kitabxana kollektoru, habelə Bakı Şəhər Ekologiya Departamenti tərəfindən yeni kitab və nəşr nümunələri daxil olub. Oxucular tərəfindən hədiyyə olunan kitablar isə mərkəzi kitabxana və filiallara verilib. Məzmunca köhnəlmiş, yararsız hala düşmüş, oxucular tərəfindən istifadə olunmayan ədəbiyyatlar isə balansdan silinib. Oxuculara verilən ədəbiyyatların tematik tipoloji təşkili, qeyri-fəal istifadə edilən nəşrlərin müəyyənləşdirilməsi, oxucuların informasiya tələblərinin ödənilməsinə yönəlmiş sorğuların keçirilməsi və əldə edilmiş nəticələr əsasında fondların komplektləşdirilməsi ilə əlaqədar müvafiq tədbirlər həyata keçirilib.

MKS tərəfindən 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Novruz bayramı, 31 Mart – Dünya Azərbaycanlılarının Soyqırımı Günü, 28 May – Respublika Günü, 18 Oktyabr – Müstəqillik Gününə həsr olunmuş tədbirlər keçirilib. Habelə burada "Narkomaniya ilə mübarizə hər birimizin vəzifəsidir" mövzusunda maarifləndirici tədbir təşkil olunub. Bundan başqa, ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə bağlı MKS və onun filiallarında "Heydər Əliyev irsinin öyrənilməsi və təbliğ olunması" mövzusunda silsilə tədbirlər təşkil olunub.

Kitabxananın keçirdiyi tədbir və sərgilər "www.bineqedi-mks.az" saytında ətraflı işıqlandırılıb. Saytda Azərbaycanın tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənəti, ölkəmizin görməli-gəzməli yerləri barəsində materiallar da yerləşdirilib.

Prezident İlham Əliyevin sərəncamı ilə 2013-cü ilin ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olunması ilə bağlı oxucuların informasiya tələbatının ödənilməsi məqsədilə müasir informasiya resurslarından istifadəyə diqqət daha da artırılıb. "Facebook"



sosial şəbəkəsində Mərkəzi Kitabxana Sisteminin səhifəsi yaradıb. Məqsəd ictimaiyyətlə daha sıx əlaqələr qurmaq, kitabxanaya yeni oxucuları cəlb etməkdir. Səhifə vasitəsilə kitabsevərlər burada təşkil olunan tədbirlərə, o cümlədən yazıçılarla görüşə dəvət olunurlar. Səhifədə, həmçinin, müəyyən sorğular keçirilir, kitabxananın saytında yerləşən məlumatlar istifadəçilərlə paylaşılır.

2014-cü il yanvarın 19-da MKS-in 4 saylı filialında 20 Yanvar faciəsi ilə bağlı anım tədbiri təşkil olunub.

cəmiyyət

Binəqədi ictimaiyyəti bir ziyalısını itirdi

Tanınmış yazıçı-publisist Aslan Qəhrəmanlı 1939-cu il sentyabr ayının 14-də Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır.



Əmək fəaliyyətinə 1961-ci ildə Elmlər Akademiyasının Hesablama Mərkəzində başlayan A.Qəhrəmanlı həmin mərkəzin bazası əsasında Kibernetika İnstitutu yaradıldıqdan sonra burada müxtəlif vəzifələrdə çalışmış və elmi-tədqiqatla məşğul olmuşdur. 1972-1975-ci illərdə keçmiş ittifaqın «NeftMaş» Birliyinin xüsusi konstruktor bürosunda laboratoriya rəisi vəzifəsində çalışmışdır.

1975-1977-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun tətbiqi-riyaziyyat kafedrasında baş müəllim, bir müddət Rostov Dəmiryol Mühəndisləri İnstitutunun Bakı filialında baş müəllim işlədikdən sonra o, yenidən indiki Azərbaycan Dövlət Neft Akademiyasında çalışmışdır. 1980-ci ildən 2007-ci ilə qədər həmin Akademiyada əvvəlcə baş müəllim, sonra dosent vəzifəsində çalışmışdır. 2007-ci ilin sentyabrından Azərbaycan Universitetinə işə dəvət olunmuş, universitetin riyaziyyat və informatika kafedrasının dosenti, 2011-ci ilin fevralından 2012-ci ilin iyununa qədər həmin təhsil ocağının rektoru işləmişdir.

Aslan Qəhrəmanlı bir sıra elmi əsərlərin müəllifi, iqtisadiyyatda modelləşdirməyə və vergilərə dair dərsliklərin həmmüəllifidir. 2003-2010-cu illərdə «Azərbaycanın Vergi Xəbərləri» jurnalının baş redaktoru olmuşdur.

Yazıçının «Dağların mahnısı» adlı ilk hekayəsi 1967-ci ildə «Gənc qələmlər» almanaxında dərc olunmuşdur. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış etmiş, 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

«Spektr», «Döngə», «Burulğan», «Səni axtarıram», «Bağışla» və sair telepyesləri Azərbaycan televiziyasında dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan televiziyasının «Müasirlərimiz» devizi ilə 1986-cı ildə keçirdiyi ən yaxşı televiziya pyesləri müsabiqəsində «Ürək» pyesi 2-ci mükafata layiq görülmüşdür.

Radio üçün yazdığı «Daşa dönmüşlər şəhəri», «Şeytan», «Ceyran əfsanəsi», «Tutuquşu» və sair kimi 13 nağıl-pyesi Azərbaycan radiosu ilə səsləndirilmişdir.

Aslan Qəhrəmanlı 2010-cu ildə "Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000-2010)" yubiley medalı ilə təltif edilmişdir.

Tanınmış yazıçı uzun sürən xəstəlikdən sonra 2014-cü il yanvarın 20-də vəfat etmişdir.

Uzun illər Binəqədi rayonunda yaşayan Aslan Qəhrəmanovun əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır!

Allah rəhmət eləsin.

Avtobuslarda kart sisteminin tətbiqi sərnişinlərin rahatlığını təmin edəcək

MƏHƏBBƏT ORUCOV

Son illər paytaxtın ictimai nəqliyyat sistemində bir sıra mütərəqqi yeniliklər tətbiq olunub. Köhnə və tələblərə cavab verməyən avtobuslar yeniləri ilə əvəzlənib, intellektual idarəetmə sisteminə keçid təmin edilib, dayanacaqlarda marşrut qrafikini göstərən tablolar quraşdırılıb.

Son günlər reallaşdırılan yeni layihələrdən biri də bəzi marşrut avtobuslarında kart sisteminin tətbiqi, ödəniş haqqının nağdsız formada aparılmasıdır. Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, hazırda belə kartlar 10 və 95 saylı marşrut xətti ilə hərəkət edən avtobuslarda tətbiq olunur. Fevralın sonunadək yeni sistemin 36 marşrut xətti üzrə hərəkət edən 650 avtobusda tətbiq ediləcəyi gözlənilir. Ümumilikdə isə prosesin 2014-cü ilin sonunadək başa çatdırılacağı bildirilir.

Bəs ictimai nəqliyyatda vahid ödəniş sisteminin yaradılması sərnişinlərə nə kimi üstünlüklər vəd edir?

Bu və digər suallara aydınlıq gətirmək ücün paytaxtda 10 saylı marşrut xətti üzrə hərəkət edən avtobuslarda olduq. Söhbətləşdiyimiz sürücü Nəsir Turabov bildirdi ki, bu marşrut üzrə işləyən bütün avtobuslarda validatorlar quraşdırılıb: "Gediş haqqının ödənişi avtobusa ön qapıdan daxil olan zaman həyata keçirilir. Sərnişin avtobusa daxil olaraq kartını validatora yaxınlaşdırır. Kartından gediş haqqı silindikdən sonra avtobusun salonuna keçir. Gediş haqqının silinməsi ictimai nəqliyyatda olan müvafiq tarifə əsasən həyata keçirilir".

Sürücünün sözlərinə görə, hazırda kartlardan istifadə edənlərin sayı az olsa da, sərnişinlər arasında sistemin üstünlüyünü başa düşənlərin sayı getdikcə artır: "Bir çox insanların hələ bu yenilikdən xəbərləri yoxdur. Ona görə də mətbuatda, televiziyada geniş təbliğat işi aparılmalıdır".

Qeyd edək ki, ictimai nəqliyyatın istifadəçiləri kartın alınması üçün 3 manat (2 manat sığorta depoziti, 1 manat gediş haqqı) ödəməlidirlər. Kartı geri qaytaran zaman sərnişinlər sığorta depoziti kimi ödədikləri 2 manatı geri alırlar. Nəqliyyat kartını yalnız "Bank of Azerbaijan" ASC-nin satış nöqtələrində geri qaytarmaq mümkündür. İstifadəçi kartı geri qaytararkən şəxsiyyət vəsiqəsini təqdim etməlidir. İstifadəçi "Bank of Azerbaijan" ASC-nin satış nöqtələrindən, "Yolkart" loqosu ilə təchiz olunan ticarət obyektlərindən (Bakı şəhəri üzrə ticarət köşklərindən, "Qasid" firmasının köşklərindən, iri supermarketlərdən və digər ticarət obyektlərindən) ödəniş kartını ala, balansı artıra və yaxud balansı öyrənə bilər. Kart sınarkən və ya zədələnərkən kartda istifadə edilməmiş məbləğ qalarsa, istifadəçi "Bank of Azerbaijan" ASC-nin satış nöqtələrinə müraciət etməklə yeni kart sifariş edə və istifadə edilməmiş balansı yararsız kartdan yeni karta köçürə bilər. Bunun üçün istifadəçi 2 manat məbləğində sığorta depozitini yenidən ödəməlidir.

Nəqliyyat kartı adsız bank kartı olduğu üçün itirildiyi zaman balansın bərpası mümkün deyildir. Bunun üçün satış nöqtələrinə şəxsiyyət vəsiqəsini təqdim edərək kartı qeydiyyatdan keçirmək lazımdır. Yalnız bankda qeydiyyatdan keçirilmiş kart itirildikdə onu bloklaşdırmaq mümkündür.

Nəqliyyat Nazirliyindən bildirilir ki, artıq 450 minə yaxın kart istifadəyə hazırdır. Bir milyona yaxın kart isə sifariş edilib. Hazırda paytaxtda fəaliyyət göstərən digər avtobuslarda da validatorların quraşdırılmasına başlanılıb.

Bəzi sərnişinlər yeni qaydaların əlverişli olduğunu söyləsələr də, reallıqda kartdan istifadə edənlərin sayının az olduğunu müşahidə etdik. Sərnişin Kərim Tanrıverdiyev bizimlə söhbətində yeni qaydaların tətbiqini bəyəndiyini bildirsə də, kartların baha olmasından gileyləndi: "İmkansız sərnişinlər 3 manat verib kart almaqdansa, sürücüyə 20 qəpik verməyi üstün sayırlar. Nəqliyyat kartının balansının artırılması da müəyyən vaxt itkisinə səbəb olur. Qaydalara əsasən, istifadəçilər kartın balansını "Bank of Azerbaijan" ASC-nin satış nöqtələrində və digər xüsusi yerlərdə artıra bilərlər. Balansın artırılması zamanı minimum 1 manat xərcləmək lazımdır. Bu vaxt və imkan isə hamıda yoxdur. Yaxşı olar ki, yeni sistemi tətbiq edənlər bu reallıqları nəzərə alsınlar".

Mütəxəssislər isə hesab edirlər ki, şəhərdaxili ictimai nəqliyyatda vahid kart sisteminin tətbiqi vətəndaşların rahatlığını təmin edəcək. Onların fikrincə, kart sistemi nəqliyyat sektorunda əldə olunan gəlirlərin müəyyən qisminin sahibkarlar tərəfindən gizlədilməsinin qarşısını alacaq. Yəni sərnişinlərin kart vasitəsilə ödənişləri mərkəzi serverdə dərhal qeydə alınacaq. Bu isə ictimai nəqliyyat sistemində şəffaflığı təmin edəcək.

Xatırladaq ki, bu gün Bakı üzrə gündəlik sərnişin dövriyyəsi təxminən 1 milyon 400 nəfərə çatır. Bu isə o deməkdir ki, yaxın perspektivdə sərnişinlərin gediş haqqını ödəmələri üçün 2 milyon kart lazım olacaq. Pik saatlarda ödənişə nəzarətin təmini üçün ilkin mərhələdə hər avtobusda bir xidmətçidən istifadə edilməsi planlaşdırılır.

Velosipeddən geniş istifadə tıxacları aradan qaldıra bilər

MƏHƏBBƏT ORUCOV

Son vaxtlar Bakı şəhərində daha da ciddiləşən tıxac problemi hər kəsi ciddi şəkildə narahat etməkdədir. Nəqliyyat üzrə ekspertlər, eləcə də bəzi dövlət qurumlarının təmsilçiləri vəziyyətdən çıxış yolu kimi paytaxtda velosiped idmanının inkişafına, bu məqsədlə yeni yolların, cığırların çəkilməsinə ehtiyac olduğunu bildirirlər.

Mətbuatda yayılan məlumatlara görə, Asiya İnkişaf Bankı Bakıda velosiped yollarının çəkilişi üçün təkliflər hazırlayır. Bankın yaydığı sənəddə bildirilir ki, yaxın zamanda Nəqliyyat Nazirliyi ilə birgə Bakıda avtomobil dayanacaqlarının tikintisi strategiyasının yenilənməsi, nəqliyyat axınının idarə olunması tədbirləri, strateji nəqliyyat dəhlizləri üçün sürət avtobuslarının ictimai tranzit sisteminin yaradılması, yol şəbəkəsi və yol ayırıcılarının sayının artırılması, tıxacların qarşısının alınması, nəqliyyat sisteminin yüklənməməsi üçün ictimai velosipedlər şəbəkəsinin yaradılması və digər innovativ tədbirlər haqqında təkliflər hazırlanacaq.

Nəqliyyat Nazirliyinin rəsmiləri isə hazırlanacaq təklif və planların paytaxtda tıxacların aradan qaldırılmasına kömək edəcəyini bildirirlər. Bu idman növünün kütləviləşməsi insanların sağlamlı üçün faydalı olmaqla yanaşı, ekoloji mühitin qorunması baxımından da mühüm əhəmiyyətə malikdir. Bu gün bir sıra ölkələrdə velosipeddən ictimai nəqliyyat kimi geniş istifadə edilir. Nəinki sıravi vətəndaşlar, hətta dövlət məmurları da velosipedlərdən istifadəyə üstünlük verirlər. Məsələn, Yaponiyada nazirlər təbiəti mühafizə etmək niyyəti ilə xidməti maşından yox, məhz velosipeddən istifadə edirlər. Bir sıra xəstəliklərin qarşısını alan, orqanizmin fəaliyyətinə müsbət təsir göstərən, havanın təmizliyini təmin edən velosiped həm də insanlara mənzil başına qısa zamanda çatmağa kömək edir.

Hazırda paytaxt küçələrində təsadüfi hallarda velosiped istifadəçisinə rast gəlmək mümkündür. Bəziləri bunu milli mentalitet, digərləri isə velosiped sürmək üçün təhlükəsiz yolların olmaması ilə izah edirlər. Bəs mövcud vəziyyətin aradan qaldırılması, ekoloji təmiz nəqliyyat növü olan velosipeddən istifadənin təşviqi ilə bağlı aidiyyəti dövlət qurumları tərəfindən hansı tədbirlərin görülməsi gözlənilir?

Artıq paytaxtın Binəqədi rayonunda velosipeddən istifadənin genişləndirilməsi istiqamətində müəyyən tədbirlərə başlanılıb. Bu məqsədlə "Azadlıq" prospektinin rayona aid hissəsinin genişləndirilməsi zamanı velosipedçilər üçün xüsusi yolun çəkilişi nəzərdə tutulub. Çünki velosiped sürmək üçün hazırda ən böyük maneə Bakı yollarında xüsusi cığırların olmamasıdır. Bu səbəbdən də velosiped sürmək istəyənlər daha çox dənizkənarı bulvara və digər təhlükəsiz yerlərə üz tuturlar.

Söhbətləşdiyimiz Binəqədi rayon sakinləri də velosipeddən istifadə ilə bağlı ciddi problemlərin olduğunu bildirdilər. 8-ci mikrorayon sakini Nəbi Eyvazov qeyd etdi ki, bir sıra ölkələrdə yolun hərəkət hissəsində velosiped sürənlər üçün xüsusi cığırlar mövcuddur: "Bakıda isə nəinki belə cığırlar mövcud deyil, hətta avtomobillərin normal hərəkətini təmin etmək bəzən çətin olur".

Velosiped almağı planlaşdıran Akif Tahirov isə bildirdi ki, xarici ölkələrdə velosipeddən istifadə edənlərə xüsusi qayğı göstərilir: "Velosiped sürmək Bakı şəhərində son dərəcə təhlükəlidir. Çünki bəzi sürücülər öz minik avtomobillərini normal qaydada idarə edə bilmirlər. Bu baxımdan, velosiped sürmək istəyənlər üçün xüsusi yolların çəkilməsi vacibdir".

Müsahibimiz Qəşəm Nəsibov isə bildirdi ki, son illər ölkədə velosiped alanların sayı artıb: "Bu gün Azərbaycanda velosipedə əsasən, uşaqların əyləncə və ya idman vasitəsi kimi yanaşırlar. Halbuki velosiped bir sıra ölkələrdə əsas nəqliyyat vasitələrindən biridir. Avropalılar velosipedlə yol getməyi çox xoşlayır".

"Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Pünhan Mürsəliyev bu günlərdə mətbuata bildirib ki, Bakıda yeni velotreklərin və xüsusi velosiped zolaqlarının yaradılması nəzərdə tutulub.

Nəqliyyat Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Namiq Həsənovun sözlərinə görə, velosiped sürənlərin sayının artması tıxacların sayının azalmasına müsbət təsir göstərə bilər: "Sadəcə olaraq, bunun üçün xüsusi cığırların salınması lazımdır. İnsanların özləri də psixoloji baxımdan velosiped sürməyə hazır olmalıdır. Yəqin ki, yaxın illərdə bu istiqamətdə ciddi irəliləyişlərin şahidi olacağıq".

Xatırladaq ki, Azərbaycan Velosiped İdmanı Federasiyası təxminən son 1 ildə fəaliyyətini xeyli genişləndirərək bu idman növünə gənclərin marağını artırmaq istiqamətində ciddi addımlar atır. Güman edirik ki, bütün bunlar ölkəmizdə velosipedin populyarlığına öz müsbət töhfəsini verəcək.

• HEYDƏR ƏLİYEV FONDU

Azərbaycan həqiqətləri dünyaya çatdırılır

İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası (Azİz) Hayfa Universitetində İranın və İran körfəzi ölkələrinin öyrənilməsi üzrə "Ezra" mərkəzi ilə birlikdə 1990-cı il 20 Yanvar faciəsi ilə bağlı tədbir keçirib.

Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil olunmuş gecədə İsrailin müxtəlif bölgələrində yaşayan, əslən Azərbaycandan olan sakinlər, faciə zamanı həlak olmuş Aleksandr Marxevka, Vera Bisantina və Yan Meyeroviçin hazırda İsraildə yaşayan doğmaları və yaxınları iştirak ediblər. Anım tədbirində məşhur kinorejissor Andrey Konçalovskinin "Hakimiyyət yükü" adlı sənədli filmindən parça nümayiş etdirilib.

Universitetin Tələbələr Evinin mərkəzi zalında Azİz Assosiasiyasının üzvü, 20 Yanvar hadisələrinin canlı şahidi olmuş, hazırda İsraildə yaşayan bakılı fotoqraf Boris Dobinin faciə günü çəkdiyi fotoların sərgisi təşkil edilib. Boris Dobin 20 Yanvar hadisələrini əks etdirən 67 fotoşəkildən ibarət kolleksiyasını Heydər Əliyev Fonduna bağışlayıb.

Tədbirdə "Ezra" mərkəzinin direktoru doktor Soli Şahvar, mərkəzin elmi işçisi Emil Abramov, Azİz Assosiasiyasının nümayəndələri Yeganə Salman, Arye Qut, Mehman Quliyev və digərləri çıxış ediblər.

Heydər Əliyev Fondunun Türkiyə nümayəndəliyi Bursa şəhərindəki Uludağ Universitetində 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar konfrans keçirib. Tədbirdə universitetin tələbə-müəllim heyəti, Bursa şəhərinin rəhbərliyi iştirak ediblər.

Heydər Əliyev Fondunun Türkiyə təmsilçisi Samir Cəfərov Sovet İttifaqının dağıldığı dövrdə öz dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqına qarşı törədilmiş qətliamın səbəblərindən, ermənilərin, onların havadarlarının məkrli siyasətindən danışıb. O, həmin günlərdə məhz ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək qətliamın günahkarlarını ifşa etdiyini xatırladıb.

Konfransda çıxış edən professor Göksəl İşyar və dosent Barış Özdal əsrlər boyu ermənilərin Azərbaycanda və Anadoluda törətdikləri qırğınlardan, o cümlədən 20 Yanvar və Xocalı faciələrindən söz açıblar.

Sonda konfrans iştirakçıları 20 Yanvar faciəsindən bəhs edən fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar.

→ iqtisadiyyat

THE WORLD BANK Azərbaycan iqtisadiyyatı daha da inkişaf edəcək

Dünya Bankı yaxın üç ildə Azərbaycan iqtisadiyyatının daha da inkişaf edəcəyini proqnozlaşdırmışdır. «AzərTAc» xəbər verir ki, qurumun mütəxəssisləri Azərbaycanla bağlı iqtisadi proqnozların müsbət olduğunu bildirmişlər.

Azərbaycanla yanaşı, bir sıra Avropa ölkələrinin iqtisadiyyatında da irəliləyişlərin olacağını bildirən mütəxəssislər MDB məkanında yalnız Azərbaycan və Qazaxıstan iqtisadiyyatında müsbət meyilləri qeyd etmişlər. Onların gəldiyi qənaətə görə, Rusiya və iqtisadiyyatı Rusiyadan asılı olan bir sıra postsovet ölkələrində, xüsusilə Ermənistan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Moldovada bu il də artım müşahidə olunmayacaq.

Qeyd edək ki, BMT-nin İqtisadiyyat və sosial məsələlər üzrə Departamentinin ekspertləri də Azərbaycan iqtisadiyyatının inkişaf tempinin artacağını proqnozlaşdırırlar.

Biznes forumu keçiriləcək

Yanvarın 28-də Azərbaycan Respublikası Hökuməti və Macarıstan Respublikası Hökuməti arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclası keçiriləcəkdir.

İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, iclasda Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlığın mövcud vəziyyəti, komissiyanın 3-cü iclasından sonrakı dövrdə görülmüş işlər və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə ediləcəkdir.

Macarıstan nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Bakıda Azərbaycan-Macarıstan biznes forumu da keçiriləcəkdir. Forumda rəsmi şəxslərlə yanaşı, tikinti, İKT, kənd təsərrüfatı, qida emalı avadanlıqları, tekstil, əczaçılıq, turizm, maliyyə, alternativ enerji, daşınmaz əmlak, qablaşdırma və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak edəcəklər.

cəmiyyət

→ tanınmışlar

Əsl muğam ustası daim sənətin sirlərini öyrənməyə çalışmalıdır

SİYAVUŞ ƏMİRLİ

İnsan xarakterinin formalaşmasında onun doğulub boya-başa çatdığı, suyunu-çörəyini daddığı, havasını udduğu torpağın rolu az deyil. Beynəlxalq muğam müsabiqəsinin qalibi, Azərbaycan xanəndəlik məktəbinin tanınan və sevilən nümayəndələrindən olan Ehtiram Hüseynovun yanıqlı, həzin ifasında dünyaya göz açdığı Laçın rayonunun təbiətinin saflığı, füsunkarlığı duyulur. Tanınmış xanəndəni insanlara sevdirən əsas xüsusiyyətlərdən biri də, onun sadəliyi və həddindən artıq təvazökar olmasıdır.

– Ehtiram bəy, özünüz haqda məlumat verməyinizi istərdik...

– 1980-ci ildə Laçın rayonunun Hacısamlı kəndində anadan olmuşam və ibtidai təhsilimi də orada almışam. 1992-ci ildə rayonumuz ermənilər tərəfindən işğal edildikdən sonra isə təhsilimi Bakı şəhərində – Biləcəri qəsəbəsindəki 284 saylı orta məktəbdə davam etdirmək məcburiyyətində qaldım. Erkən yaşlarından musiqiyə, oxumağa böyük həvəsim olub. İlk musiqi təhsilimi Ağdam muğam məktəbində almışam. Sonra isə «Bənövşə» uşaq xorunda çıxış edə-edə Asəf Zeynallı adına musiqi kollecində musiqi təhsilimi davam etdirmişəm. Hazırda Azərbaycan Milli Konservatoriyasının məzunuyam.

– Bəs sənətə gəlişiniz necə oldu?

– Uşaqlıqdan Yaqub Məmmədov, Arif Babayev kimi xanəndələrin lent yazılarını, radio və televiziya çıxışlarını dinləmişəm. Lakin deməzdim ki, sənətə gəlimişim hansısa xanəndənin təsiri ilə baş verib. Nəslimizdə səsi olanlar çoxdur, lakin onlar bu sənətin ardınca getmədilər. Lakin xanəndəlik sənəti daim məni öz cazibəsinə çəkirdi, oxumağa həvəsim çox idi. Ailə üzvlərim nəinki bu istəyimə qarşı çıxmadılar, əksinə, mənəvi dəstək olub istiqamət verdilər. Nəticədə həyatım bu sənətlə bağlandı.

Musiqinin başqa janrlarından fərqli olaraq, muğamda, aşıq sənətində mütləq ustadın olmalıdır. Məktəbsiz muğam sənəti təməlsiz evə bənzəyir, o, gec-tez uçub dağılacaq. Asəf Zeynallı adına musiqi kollecində xalq artisti Canəli Əkbərov, Milli Konservatoriyada isə professor Arif Babayev kimi ustad sənətkarlardan dərs almışam. Onların dəstəyi olmasaydı, mən bəlkə də heç bir uğur qazana bilməzdim.

– Televiziya Muğam Müsabiqəsi yaradıcılığınızda hansı rolu oynadı?

– Hazırda dünya ölkələrində ayrı-ayrı musiqi janrları üzrə müxtəlif müsabiqələr keçirilir. Televiziya Muğam Müsabiqəsi isə yeganə yarışmadır ki, burada tamaşaçı SMS-ləri heç bir rol oynamır. Belə bir uğurlu layihəni reallaşdırdığına görə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevaya muğam müsabiqəsi iştirakçıları adından bir daha minnətdarlığımı bildirirəm. Bu müsabiqədə bizə öz istedadımızı nümayiş etdirmək üçün geniş meydan verildi. Hesab edirəm ki, həmin müsabiqələrdə iştirak edən gənclər gələcəkdə böyük xanəndə olacaqlar.

– Muğamı sona qədər dərk etmək, öyrənmək mümkündürmü?

– Məncə, bu, mümkün deyil. Yeddi əsas muğam var. Bu muğamların hər guşəsində, hər şöbəsində böyük rəngarənglik, zənginlik var. Onları ifa edəndə müəyyən həqiqətləri sanki yenidən dərk edirsən. Seyid Şuşinski kimi dahi xanəndənin yaratdığı məktəb əsasında gənc muğam ifaçıları tanınmış sənətkarlardan dərs alırlar. Bu proqramdan kənara çıxmaq olmaz.

– Dinləyicilər daha çox nəyə qulaq asmaq istəyirlər?

– Bu, məkan və zamandan asılıdır. Elə məclis olur ki, orada muğamı dəstgah halında tələb edirlər. Elə də olur ki, orada kiçik bir təsnif, xalq mahnısı oxumaqla kifayətlənirsən.

– Sizcə, son illər muğama gənclərin marağının artması nə ilə bağlıdır?

– Bunu, ilk növbədə, respublikada muğamın təbliği sahəsində həyata keçirilən işlərlə əlaqələndirərdim. Xüsusən də televiziya ilə canlı yayımlanan müsabiqələr insanlarda muğama marağı xeyli dərəcədə artırmış oldu. 2007-ci ildə keçirilmiş muğam müsabiqəsində Pərvaz İbrahimli və Elməddin İbrahimov kimi azyaşlı uşaqların ifaları onların həmyaşıdlarında da bu sənətə marağı gücləndirdi. Ümumilikdə, ölkəmizdə muğam sənətinə olan qayğı və diqqət kiçik yaşlı uşaqların da bu sahəyə meyillənməsini təmin edir. Böyük sənətkarlarımız da deyirlər ki, Azərbaycanda heç vaxt muğama bu qədər diqqət, həvəs və dəstək olmayıb.

– Uzun müddətdir ki, Binəqədidə yaşayırsınız. Rayonumuzun bu günü barədə nə deyə bilərsiniz?

– Binəqədi rayonunda son illər həyata keçirilən abadlıq-quruculuq, yenidənqurma işləri adamı heyrətləndirir. Yaşadığım Biləcəri qəsəbəsi uzun illərdən bəri bərbad vəziyyətdə idi. Amma son vaxtlar qəsəbə sürətlə abadlaşır. Belə fikirlər səslənirdi ki, Binəqədi coğrafi yerləşməsinə, relyefinə görə çətin rayondur. Fəqət, rayonun yeni rəhbəri cənab Xaləddin İsgəndərov sübut elədi ki, istənilən şəraitdən asılı olmayaraq qurmaq, yaratmaq mümkündür. Bunun üçün sadəcə istək, iradə lazımdır.

Müxtəlif sənət adamları ilə tez-tez görüşürəm. Onlar Binəqədi rayonunda həyata keçirilən işləri bəyənir və ürəkdən dəstəkləyirlər. Bakı-Sumqayıt yolu, eləcə də bir sıra mikrorayonlar ən müasir tələblərə uyğun abadlaşdırılıb. Ötən il Binəqədi RİH başçısının bizim məhəllənin sakinləri ilə görüşü keçirilib. Həmin görüşdə iştirak edə bilməsəm də, məhəllə sakinlərinin, qohumların çox razı qaldıqlarını eşitdim. Sənət adamı kimi, Binəqədi rayonunun abadlaşmasında rolu olan hər kəsə minnətdarlığımı bildirirəm. İnanıram ki, tezliklə rayonumuz Bakının ən gözəl guşələrindən birinə çevriləcək.

→ mədəniyyət

Azərbaycanlı rəssamın əsəri Londonda

2014-cü il yanvarın 25-dən 2015-ci il iyulun 13-dək Londonun Kurto İncəsənət İnstitutunda "East Wing" Biennalesi çərçivəsində Azərbaycan rəssamı Rəşad Ələkbərovun yeni əsəri nümayiş olunacaq.

"East Wing" Biennale silsiləsinin 11-ci konsepsiya əsaslı instalyasiyalar sərgisi gənc kuratorlara müasir incəsənəti təmsil edən rəssamlarla yeni əməkdaşlığın yaradılması imkanı verir. İnteraktiv, yəni iştirakçılıq əsaslı incəsənətin nümayəndələri olan rəssamlar tamaşaçılarla birlikdə sərgidə müəyyən rol oynayacaqlar. Rəssamların bəziləri əvvəlcədən müəyyənləşdirilmiş və ifa etdikləri rolların öhdəsindən məharətlə gəlmək məqsədilə tamaşaçıları yaradılan əsərlərlə ünsiyyət qurmağa və bununla da bu ünsiyyətə maraq oyatmağa dəvət edəcək, digərləri isə əsərlərlə bağlı suallar verəcək və irəli sürülən tələbləri səsləndirəcəklər.

Səfir Əlyazmalar İnstitutunda olmuşdur

Yanvarın 23-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri Musaid bin İbrahim bin Abdullah Əl-Səlim Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda olmuşdur.

İnstitutun direktor əvəzi Paşa Kərimovla görüşdə Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafı üçün geniş imkanların olduğu bildirilmişdir.

Əlyazmalar İnstitutunda zəngin mədəni irsin saxlanıldığını söyləyən səfir Səudiyyə Ərəbistanının müvafiq qurumları ilə əməkdaşlığa dair müqavilələrin bağlanmasına kömək edəcəyini vurğulamışdır.

Azərbaycan Məşvərətçi Şuraya üzv seçilmişdir

2013-cü il üçün İslam mədəniyyətinin paytaxtı seçilmiş Səudiyyə Ərəbistanının Mədinə şəhərində İSESCO-nun təşkilatçılığı ilə Mədəniyyət Nazirlərinin VIII İslam Konfransı keçirilir. Yanvarın 23-də başa çatacaq konfransda ölkəmizi Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

İslam Dünyasının Mədəniyyət Strategiyasının üzv ölkələr tərəfindən tətbiq edilməsinə dair həmin ölkələrin nümayəndələrinin və baş direktorun hesabatı dinlənilmişdir. Konfransın yanvarın 22-də keçirilən iclasında Azərbaycan İslam mədəni strategiyasının icrası üzrə Məşvərətçi Şuraya üzv seçilmişdir.

→ sadə peşə adamları

"Qazandığım pul yaşayışıma bəs edirsə, bu, yetərlidir..."

ESMİRA ORUCOVA

Öz peşəsinin incəliklərini dərindən bilən, işinin vurğunu olan insanlar cəmiyyətdə hörmət-izzət sahibinə çevrilir, insanlar qarşısında alnıaçıq, üzüağ olurlar. "Çörəyi ver çörəkçiyə, birini də üstəlik" deyimi də illərin təcrübəsinə, sınağına söykənir. Bu gün peşəsi ilə qürur duyan, insanlara layiqli xidmət göstərməyə çalışan sadə zəhmət adamları ilə tez-tez qarşılaşırıq.

Belə insanlardan biri də peşəkarlığı ilə seçilən, gördüyü işin məsuliyyətini dərk edən rəngsaz İlyas Elyazovdur. Ömrünü rəngsazlığa həsr edən, istedadını boyaların dili ilə canlandıran İlyas seçdiyi peşəyə görə heç zaman peşmanlıq hissi keçirmir. Valideynlərinin arzularına rəğmən, onun həyat yolu ali məktəblərdən deyil, peşə cığırlarından keçib: "Valideynlərim ali təhsil almağımı çox istəsələr də bu, mənə qismət olmadı. Fikrimcə, kiminsə həyatda öz yerini tutması, insanlara gərəkli olması üçün ali təhsil alması heç də əsas şərt deyil. Hər kəs öz yolunu seçir – kimisi ali təhsil alır, kimisi də həyatını müxtəlif peşələrə bağlayır. Mən də ikinci yolu seçərək, uzun illərdir ki, rəngsazlıq edirəm. Tanıyanlar işimin ustası olduğumu deyirlər. İllərimi bu peşəyə həsr etmişəm və öz sənətimdən zövq alıram. Bəzən iş zamanı muğamlarımızı zümzümə edirəm. Bu, mənə sanki enerji verir, işləməyə həvəsləndirir", – deyə İlyas usta bildirdi.

Peşəsinin ustası olan İlyas Elyazov halallıqla, zəhmətlə çörək qazanmağı üstün tutur. Deyir ki, alın təri ilə qazanılan çörək minnətsiz olur: ailəsinə halal çörək yedizdirən insan heç kimin qarşısında əyilmir: "Şübhəsiz, sənətim mənə pul qazandırır. Demirəm ki, yüksək gəlirim var. Amma alın təri ilə əldə etdiyim pul mənə güzəranımı təmin etməyə imkan verir. Pul mənim üçün məqsəd olmayıb, heç vaxt çoxlu pulumun olmasını arzulamamışam. Qazancım yaşayışıma bəs edirsə, bu, mənim üçün yetərlidir".

İlyas gənc yaşlarından halal zəhmətə qatlaşıb, ailəsinə maddi dəstək olub. İşindən əldə etdiyi gəlir cüzi olsa da, kasıb ailəsinin büdcəsinə köməklik edib. Hər dəfə evə qazanc gətirəndə özünü dünyanın ən xoşbəxt insanı sayıb.

Uşaqlıq illərində idmana böyük həvəs göstərib. Bəlkə də gələcəkdə yaxşı idmançı ola bilərdi: fiziki imkanları, bacarığı buna imkan verirdi. Lakin ailəsinə yardımçı olmaq istəyən İlyas bir müddət sonra idmandan uzaqlaşmalı olub. Atası dünyasını dəyişdikdən sonra onun üzərinə daha böyük məsuliyyət düşüb, az qala təkbaşına ailənin bütün qayğılarını çəkməli olub: "Gecə-gündüz çalışır, ailəmin firavan dolanması üçün hər cür zəhmətə qatlaşırdım. Atamın yoxluğunu hiss etdirməməyə çalışır, anamın əziyyət çəkməsini istəmirdim. Lakin bir qədər sonra anam da mənə kömək üçün işə başladı. Ana-bala ələlə verərək bütün çətinliklərin öhdəsindən gəldik".

İlyas Eyvazov 4 oğul övladını Vətənə, xalqa layiqli insan kimi yetişdirmək üçün səylə çalışır: "Ata olduqdan sonra valideynlərin övlad yolunda nələrə qatlaşa biləcəyini dərk etdim. İstərdim ki, övladlarım əziyyət çəkməsinlər, lakin bütün hallarda onların halal çörək qazanmasını istəyirəm. İnanıram ki, bu arzularım gerçəkləşəcək. Düzü, övladlarımın peşə seçiminə müdaxilə etmək istəməzdim. Bəlkə də onlar gələcəkdə daha yaxşı sənətkar kimi tanınacaqlar.

Yeri gəlmişkən, üzümü gənclərə tutub deyirəm ki, zərərli vərdişlərdən uzaq olsunlar, faydalı bir işin dalınca getsinlər. Bəzən küçələrdə veyillənən gəncləri görəndə hirslənir, imkan daxilində yanıma çağırıb öyüd-nəsihət verirəm. Əlbəttə, onlar istədikləri peşəni seçə bilərlər. Əsas budur ki, insanlara fayda verməyi bacarsınlar, lazımlı şəxs olsunlar".

Azərbaycanda qeyri-neft sektoru yüksəliş dövrünü yaşayır

Ötən il ölkə iqtisadiyyatının digər sahələri ilə yanaşı, tikinti kompleksi də dinamik inkişaf etmişdir.

Dövlət Statistika Komitəsindən bildirmişlər ki, bütün maliyyə mənbələrindən əsas kapitala 17,9 milyard manat və ya əvvəlki ilə nisbətən 15,1 faiz çox vəsait yönəldilmiş, onun 76,7 faizi daxili mənbələr hesabına təmin edilmişdir.

2013-cü ildə Bakı şəhərində gəmi təmiri istehsalat bazası, gəmiqayırma və çörək zavodları, Heydər Əliyev Beynəlxalq Aeroportunda anqar kompleksi və Beynəlxalq Logistika Mərkəzi, Qaz Turbinli İstilik Elektrik Stansiyası, Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikası, "Alov qüllələri" kompleksindəki "Fairmont Baku" oteli, "Qələbə Meydanı" müxtəlif səviyyəli tunel tipli yol qovşağı, yeraltı avtomobil dayanacağı, Şərur rayonunda Arpaçay Su Elektrik Stansiyası, Sumqayıt şəhərində "Gilan" Tekstil Parkı, polad boru zavodu, "Sağlam qida" Aqrar Sənaye Kompleksi, Şirvan şəhərində "Cənub" Elektrik Stansiyası, Olimpiya İdman Kompleksi və Şirvan-Muğan qrup su kəməri, Abşeron rayonunda birdəfəlik plastik qablar və priforminqlər istehsalı, "Milla" süd məhsulları və dondurma istehsalı zavodlarının tikintisi başa çatdırılmışdır.

Həmin dövrdə Ağcabədi rayonunda "Aqat-Aqro" heyvandarlıq kompleksi, mərkəzi xəstəxana, gənclər mərkəzi, Ağstafa rayonunda Peyntbol və atıcılıq mərkəzi, Astara rayonunda boks mərkəzi, Balakən rayonunda soyuducu anbar kompleksi, Cəlilabad rayonunda mərkəzi xəstəxana, Gədəbəy rayonunda qızıl emalı zavodu, aşıq musiqi məktəbi, soyuducu anbar kompleksi, Qazax rayonunda sement zavodu, Qəbələ rayonunda üzüm emalı zavodu, heyvandarlıq-südçülük kompleksi, aqrar sənaye kompleksi, "Qafqaz Karvansaray" otel kompleksi, Qobustan rayonunda idman kompleksi, Quba rayonunda Milli Qolf Klubu, Gənclər Mərkəzi, "Rixos Quba Azerbaijan" oteli, Qusar rayonunda "Şahdağ" və "Pik Palas" otelləri, Hacıqabul rayonunda seramik plitələr istehsalı zavodu istifadəyə verilmişdir.

Bundan əlavə, Xaçmaz, Qax, Saatlı rayonlarında Olimpiya idman kompleksləri, İsmayıllı rayonunda Tikiş fabriki, "İsmayıllı-1" Su Elektrik Stansiyası, Sabirabad rayonunda Kür çayı üzərində körpü, istixana kompleksi, Lənkəran, Siyəzən rayonlarında Gənclər Mərkəzi, Şabran rayonunda Vəlvələçay-Taxtakörpü kanalı, Taxtakörpü su anbarı, Taxtakörpü Su Elektrik Stansiyası, Şəmkir rayonunda "Zəka" İntellektual Gənclər Mərkəzi, "Excelsior Hotel Shamkir" mehmanxanası, Tovuz rayonunda Hemodializ Mərkəzi, Yevlax rayonunda hava limanı, mərkəzi xəstəxana, bütün maliyyə mənbələri hesabına ölkədə ümumi sahəsi 2 milyon 138,8 min kvadratmetr olan yeni yaşayış sahəsi, 1338 çarpayılıq xəstəxana, növbədə 638 nəfəri qəbul edən ambulatoriya-poliklinika müəssisələri, 34 min 512 şagird yerlik ümumtəhsil məktəbləri, 2466 yerlik məktəbəqədər təhsil müəssisələri, 1124 yerlik klub və digər obyektlər istifadəyə verilmişdir.

Milli Qəhrəmanın doğum günü qeyd olundu

MAİL AĞAXANOV

Füzuli Salah oğlu Rüstəmov 1965-ci il dekabrın 25-də Tərtər rayonunun Hüsənli kəndində anadan olub. O, uşaq vaxtlarından Xocalıda babasının himayəsində yaşayıb. Müharibənin ilk günlərindən özünümüdafiə dəstəsinə daxil olub, bir sıra əməliyyatlarda yaxından iştirak edib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə F.Rüstəmov yaralı komandiri Adil Quliyevi döyüş meydanından çıxararaq xilas edib. O, Xocalıdan dinc əhalinin çıxarılmasında əsl qəhrəmanlıq göstərib, son dəfə geri qayıdarkən isə güllə yarası alıb və Ağdam rayon mərkəzi xəstəxanasında dünyasını dəyişib.

1997-ci il fevralın 25-də Füzuli Rüstəmovun ölümündən sonra Milli Qəhrəman adına layiq görülüb.

Binəqədi rayon 246 saylı tam orta məktəbin akt zalında Binəqədi Rayon İcra Hakimiyyətinin, "Xocalı Soyqırımını Tanıtma" və "Erməni Təcavüzünün Tanıdılması» ictimai birliklərinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Füzuli Rüstəmovun doğum gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aqil Eyvazov, millət vəkili Elman Məmmədov, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyin sədri Şamil Sabiroğlu, "Milli Qəhrəmanlar" birliyinin sədri Mirbəşir Seyidzadə, Xocalı Rayon İcra Hakimmiyyətinin nümayəndəsi Xəlil Vəliyev, Milli Qəhrəmanın bacısı Fiqurə Rüstəmova, elm adamları, KİV təmsilçiləri, Milli Qəhrəmanın döyüş yoldaşları və dostları iştirak ediblər.

Tədbirin aparıcısı, "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri Ayna Novruzova qonaqları salamladıqdan sonra şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən millət vəkili Elman Məmmədov bildirib ki, Azərbaycanın taleyində şəhid oğulların, milli qəhrəmanların mühüm rolu olub. Vətən, torpaq uğrunda döyüşmüş, canını qurban vermiş qəhrəmanlarımızın döyüş şücaətləri barədə həmişə danışmalıyıq. Qoy gənc nəslin nümayəndələri bilsinlər ki, bu cür igid soydaşları olub.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Aparatının İctimai-siyasi və humanitar şöbəsinin müdiri Aqil Eyvazov belə tədbirlərin vacibliyini qeyd edərək bildirib ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal edilmiş torpaqlarımızı tezliklə geri alacağıq. Buna ölkəmizin hər cür qüdrəti və imkanı var.

Daha sonra çıxış edən "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu Füzuli Rüstəmovun həyat və döyüş yolu barədə iştirakçılara geniş məlumat verib, onun Vətən, xalq qarşısında xidmətlərindən danışıb.

Tədbirdə çıxış edən Milli Qəhrəmanın bacısı və yaxınları anım mərasiminin təşkilatçılarına, Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyinə və tədbirdə iştirak edən qonaqlara öz təşəkkürlərini bildiriblər.

Binəqədi məktəblərində idmana xüsusi qayğı ilə yanaşılır

ESMİRA ORUCOVA

Orqanizmin fiziki və zehni yükü arasında tarazlığın yaradılması vacib məsələdir. Bunun üçün hər bir insan özündə idman və bədən tərbiyəsi ilə məşğul olmaq vərdişi yaratmalıdır. Bu vərdişə yiyələnməyin ən münasib dövrü insanın hələ həyat problemlərindən nisbətən uzaq olduğu uşaqlıq və yetkinlik çağıdır.

Bu reallıq nəzərə alınaraq, paytaxtın Binəqədi rayonunda yerləşən təhsil müəssisələrində də idmana xüsusi diqqət və qayğı göstərilir. Rəsulzadə qəsəbəsində yerləşən 100 saylı tam orta məktəbin nümunəsində bunu əminliklə söyləmək mümkündür. Təhsil ocağının şagirdləri spartakiadalarda, rayonlarda və paytaxt Bakıda keçirilən müxtəlif idman yarışlarında uğurla iştirak edir, yarış təcrübələrini artırırlar. Məktəbdə idman dərsləri yüksək səviyyədə təşkil olunur. Şagirdlər komanda idman növləri ilə hətta bədən tərbiyəsi dərslərindən sonra da məşğul olurlar.

100 nömrəli tam orta məktəbin direktoru Gülnarə Məmmədova bizimlə söhbətində bildirdi ki, bu ümumtəhsil müəssisəsinin şagirdləri indiyədək idman sahəsində ciddi uğurlar əldə ediblər: «Məktəbdə ayrı-ayrı idman növləri üzrə uğur qazanmış çoxlu sayda idmançılar var. Bəzi şagirdlərimiz hətta bir neçə idman növü ilə məşğul olurlar. Onların fiziki cəhətdən daha da möhkəmlənməsi üçün idman zalında müntəzəm olaraq komanda idman növləri üzrə oyunlar təşkil edirik. Məqsədimiz uşaqların fiziki hazırlığını yüksək səviyyəyə çatdırmaqdır. İdmana, bədən tərbiyəsinə aludə olan uşaq və gənclərin sağlamlığı möhkəmlənir, onların yoluxucu xəstəliklərə qarşı müqaviməti güclənir. Nəticədə dərsi qavrama səviyyəsi də yüksək olur. Adətən, valideynlər 7-8 yaşlarında öz övladlarını idman məktəblərinə, idman klubları və cəmiyyətlərinə yazdırırlar. Bu yaşda uşaqlarda müəyyən idman növü üzrə istedadın olmasını da çox zaman orta məktəbdə idman dərsini tədris edən müəllimlər üzə çıxarırlar. Bu baxımdan, bizim məktəbin şagirdləri arasında cüdo, boks, güləş, kikboksinq üzrə yüksək nəticələri olanlar çoxdur».

Təhsil ocağında futbolun inkişafına xüsusi diqqət yetirilir. Məktəb şagirdləri sırasında ayrı-ayrı idman klublarında futbolla məşğul olanların sayı durmadan artır. Maraqlıdır ki, bu idman növünə maraq göstərən qızların da sayı az deyil. Son illər məktəbin şagirdləri rayon və Bakı şəhər məktəblilərinin spartakiadası çərçivəsində keçirilən turnirlərdə müxtəlif idman növləri üzrə qüvvələrini sınayaraq layiqli nəticələr göstəriblər.

Rayonun 3 saylı məktəbində də idman dərsləri yüksək səviyyədə təşkil olunur. Burada şahmat otağı və idman zalı fəaliyyət göstərir. Təhsil ocağının voleybolçuları üç il ardıcıl olaraq qızıl, gümüş və bürünc medal qazanıblar. Məktəbin X sinif şagirdi Fatimə Əfəndi voleybol üzrə yığma komandanın üzvüdür. Direktor Nizami Novruzovun sözlərinə görə, fiziki hazırlıq fənnini 6 müəllim tədris edir: "Son illər paytaxt və bölgələrdə çoxlu sayda müasir standartlara cavab verən yeni məktəb binaları tikilir. Bu təhsil müəssisələrində hər bir şəraiti olan idman zalları uşaqların istifadəsinə verilir. Bizim məktəbin idman zalı da ötən il əsaslı təmir olunaraq şagirdlərin ixtiyarına verilib. Burada idmanın kütləviliyinin təmin edilməsi məqsədilə çoxlu sayda tədbirlər həyata keçiririk. Məktəblilərin spartakiadası, "Şahin" və "Cəsurlar" hərbi idman oyunları, müxtəlif idman növləri üzrə birinciliklərin və çempionatların keçirilməsi məktəblilər arasında idmana marağı gücləndirir, onların fiziki hazırlıqlarının artırılmasına, təcrübə toplamasına imkan yaradır. Çalışacağıq ki, bundan sonra da təhsil nailiyyətləri ilə yanaşı, idmandakı uğurlarımızın sayını artıraq. Bu yaxınlarda Olimpiya çempionları ilə şagirdlərimizin görüşünü təşkil etməyi planlaşdırırıq».

157 saylı tam orta məktəbin idman zalının vəziyyəti isə o qədər də ürəkaçan deyil. Məktəbin direktoru Gülayə Səttarovanın sözlərinə görə, idman meydançası müasir dövrün tələblərinə cavab vermir: «Buna baxmayaraq, uşaqlar ayrı-ayrı klub və cəmiyyətlərdə idmanla məşğul olurlar. Məktəbin 7-ci sinif şagirdi Simarə Cəfərova akrobatika üzrə Azərbaycan çempionudur. Onun qardaşı Seymur isə bu idman növü üzrə Bakı çempionu adına layiq görülüb. Məktəbimizin yetirməsi Vəli Məmmədov isə bu yaxınlarda Fransada futbol üzrə keçirilən beynəlxalq turnirdə qüvvəsini sınayıb. Digər şagirdimiz Hasil Cəfərov cüdo idman növü ilə məşğul olur. O, 2013-cü ildə keçirilmiş Azərbaycan çempionatında 66 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib».

Şərəfli zabit ömrü

SİYAVUŞ ƏMİRLİ

Şəhidlik adi ölüm deyil – Vətən, torpaq və böyük amallar uğrunda həyatından keçmək, özünü şüurlu şəkildə qurban vermək əzmidir. Şəhidlik – verilmiş ömür payının gələcək nəsillərin xoşbəxtliyinə bağışlanmasıdır.

Ötən əsrin 90-cı illərinin əvvəlində minlərlə qeyrətli oğul və qızlarımız könüllü olaraq düşmənə qarşı mübarizəyə qalxdılar. Onlardan biri də Sədiyev Vəzir İsa oğlu idi. Tale Vəziri sanki Vətən keşikçisi kimi çətin və şərəfli xidmətə hazırlamışdı. Orta təhsilini Qərbi Azərbaycanın Körpülü kəndində aldıqdan sonra Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə daxil oldu. Burada hərbi təhsilini başa vurduqdan sonra Rusiyanın Qorki şəhərindəki hərbi məktəbə müəllim təyin edildi.

Vəzir Sədiyev bütün varlığı ilə hərbi sahəyə can atırdı. Onu qamətinə çox yaraşan hərbçi geyimində görən doğmalarının, yaxınlarının sevinci, qüruru sinələrinə sığmırdı. Lakin o, müəllim işləməkdən imtina edərək könüllü olaraq Əfqanıstana yola düşdü. Əfqanıstan müharibəsindən sonra hərbi hissələrin birində qərargah rəisinin müavini təyin edildi.

1992-ci ilin fevralında Xocalı soyqırımından bərk təsirlənən Vəzir dar gündə Vətənə qayıtdı və Azərbaycanda Artilleriya və Hərbi Hava Qüvvələri İdarəsində döyüş hazırlığı şöbəsinə rəis müavini vəzifəsinə təyin edildi. Laçın, Qubadlı, Füzuli, Ağdərə rayonlarının müdafiəsində düşmənə qarşı mətinliklə mübarizə apardı. Ağdərə uğrunda gedən döyüşdə xüsusi qəhrəmanlıq göstərən V.Sədiyev 1993-cü il fevral ayının 19-da rayonun Aterk kəndinin müdafiəsi zamanı qəhrəmancasına həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə Vəzir Sədiyevə ölümündən sonra «Azərbaycanın Milli Qəhrəmanı» adı verilib.

Xalqımız Vəzir Sədiyev kimi qəhrəmanlarının xatirəsini daim əziz tutur, onların şərəfli ömür yolunu gənc nəsillərə örnək göstərir.

Azərbaycan "Euro-4" standartına keçir

Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) bu ilin aprel ayından ölkədə "Euro-4" ekoloji standartına keçidlə bağlı ölkəyə gətirilən avtomobillərin idxalı prosesinə münasibət bildirib. Komitə sədri Aydın Əliyevin sözlərinə görə, DGK bu sahəyə nəzarəti gücləndirəcək.

A.Əliyev vurğulayıb ki, Azərbaycanın gömrük orqanları dövlət büdcəsi qarşısında öhdəliklərini əsasən idxal vergi və rüsumları hesabına icra edir: "Lakin, eyni zamanda, ölkədəki ekoloji vəziyyət də nəzərə alınmalıdır. Düşünürəm ki, bu qərar ölkədəki nəqliyyat sektorunun vəziyyəti və tıxaclarla bağlı vaxtında və düzgün atılmış bir addımdır".

A.Əliyev deyib ki, Azərbaycan indi "Euro-4" ekoloji standartına keçir: "Avropa ölkələri isə "Euro-5" ekoloji standartı ilə fəaliyyət göstərir. Onlar hətta "Euro-6" barədə düşünürlər. "Euro-4" standartının qəbul edilməsi bu gün Azərbaycan həqiqətlərinə uyğun olan bir qərardır. Artıq gömrük sahəsi də bununla bağlı öz hazırlıq işlərinə başlayıb".

Komitə sədri vurğulayıb ki, DGK bununla bağlı idxalçılarla danışıqlar aparır: "Dövlət Gömrük Komitəsi nəzdində Avtonəqliyyat Gömrük İdarəsində gömrük laboratoriyası fəaliyyət göstərir. Bundan sonra daha ciddi nəzarət həyata keçiriləcək. Bütün idxal olunan avtomobillər - burada söhbət işlənilmiş avtomobillərdən gedir - hamısı ciddi nəzarətdən keçəcək. Əvvəl onlar seçmə üsulla ilindən asılı olaraq laboratoriya müayinəsindən keçirilirdisə, bundan sonra bütün işlənilmiş avtomobillər laboratoriya müayinəsindən keçiriləcək. Ola bilsin ki, 1 ilin avtomobili olsun, amma onun saxlama və ya istismar müddəti elə olub ki, heç "Euro-4" ekoloji standartına cavab verməsin. İstənilən halda Dövlət Gömrük Komitəsi bu sahəyə nəzarəti gücləndirəcək".

A.Əliyev qeyd edib ki, büdcə proqnozunun yerinə yetirilməsi üçün avtomobil idxalı yeganə sahə deyil: "Büdcə digər sahələr hesabına da formalaşır. Ümid edirik ki, son zamanlar artan idxal və gətirilən mallar hesabına biz büdcə proqnozunu tam yerinə yetirəcəyik".

Məktəblilər istedadlarını nümayiş etdirmişlər

MAİL

Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının inzibati binasında Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rəsm müsabiqəsi keçirilmişdir. Xalqımızın qəhrəmanlıq salnaməsi mövzusuna həsr olunan müsabiqədə rayonun orta ümumtəhsil məktəblərinin şagirdləri iştirak etmişlər.

Tədbir orta ümumtəhsil məktəblərinin şagirdləri arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi, böyüməkdə olan gənc nəslin nümayəndələrinə vətənə sevgi, məhəbbət duyğularının aşılanması məqsədini daşıyırdı. Müsabiqədə gənclərin öz yaradıcı qabiliyyətlərini nümayiş etdirmələri üçün hər cür imkan yaradılmışdı. 41 nəfər şagirdin rəsmlərindən ibarət sərgi müsabiqənin keçirildiyi binanın foyesində nümayiş etdirilmişdir. Gənc fırça ustaları çəkdikləri əsərlərdə xalqımızın azadlıq uğrunda mübarizə tarixindən səhnələri canlandırmış, şəhid oğul və qızlarımızın obrazlarını yaratmışlar.

26 saylı Uşaq və gənclərin yaradıcılıq mərkəzində uşaq yaradıcılığının inkişafı, onlarin milli-vətənpərvərlik ruhunda tərbiyəsi, habelə qabiliyyət və bacarıqlarının üzə çıxarılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir, balacaların ifasında ədəbi-bədii kompozisiya, kiçik tamaşalar oynanılır. Bu günlərdə mərkəzdə təşkil olunmuş tədbirdə gənclər xalqımızın qəhrəmanlıq mübarizəsinə həsr olunmuş yeni ədəbi-bədii kompozisiyanı nümayiş etdirmişlər. Tamaşa izləyicilər tərəfindən hərarətlə qarşılanmışdır.

Yaradıcılıq mərkəzinin direktoru Ziyad Nəbiyev tədbirdə çıxış edərək tamaşanın ərsəyə gəlməsində əməyi olan müəllim və şagirdlərə təşəkkürünü bildirmiş, bu cür tədbirlərin yeniyetmə və gənclərin tarixi yaddaşının möhkəmləndirilməsində müstəsna rol oynadığını nəzərə çatdırmışdır.

Binəqədi rayon Gənclər və idman idarəsinin baş məsləhətçisi Elvin Orucov çıxış edərək mərkəz üzvlərinin yaradıcılığını yüksək qiymətləndirmişdir: " Səhnədə nümayiş olunan tamaşa böyüməkdə olan gənc nəslin nümayəndələrinə xalqımızın tarix boyu apardığı müstəqillik mübarizəsinin mahiyyətini əyani şəkildə anlamaqda kömək edir və onlarda doğma vətənə sevgi hissləri aşılayır".

«Binəqədi» qəzetinin kollektivi rayon sakini, tanınmış yazıçı-publisist

Aslan Qəhrəmanovun

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Binəqədi Rayon Veteranlar Şurasının sədri Telman Hətəmov ailə üzvlərilə birlikdə Bəhram Fərmanzadəyə, əzizi

Fərmanın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ALLAH RƏHMƏT ELƏSİN

sərbəst

→ iqtisadiyyat

Azərbaycanda optik şəbəkənin qurulması üzrə işlərə başlanılacaq

Azərbaycanda bu il "evlərə optika" modeli üzrə ölkənin bütün yaşayış məntəqələrinə yüksəksürətli genişzolaqlı internet xidmətlərini verən optik şəbəkənin qurulması üzrə işlərə başlanılacaqdır. Layihə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dövlət Neft Fondu tərəfindən hazırlanmışdır.

Layihə üç il müddətində həyata keçiriləcək və yüksək rentabellidir. Əsas hədəf ucqar kəndlər də daxil olmaqla, sürəti 10-100 meqabit-saniyə arasında olan genişzolaqlı internetə çıxışı təmin etməkdir. Nəticədə Azərbaycanda internetin yayılma səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılacaqdır.

317 kilometr yol əsaslı təmir edilmişdir

"Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində 2013-cü ilin dekabrın 10-da Bakı-Böyük Kəsik istiqamətində 317 kilometr yolun əsaslı təmiri başa çatmış, 256 kilometri yeni relslərlə əvəzlənmişdir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Əsgərov jurnalistlərə müsahibəsində vurğulamışdır ki, Saloğlu-Poylu mənzilinin 73-cü kilometrində Kür çayı üzərindəki ikinci körpünün və körpü üzərindən keçən dəmiryol xəttinin tikintisi, Çarxı-Sarvan mənzilinin 2508-ci kilometrində Vəlvələçay üzərindəki dəmir-beton körpünün və Saatlı-Becar mənzilinin 98-ci kilometrində Araz çayı üzərində yerləşən metal körpünün yenidən qurulması görülən işlər sırasındadır.

Bundan əlavə, dəmir yollarının təmiri və saxlanması məqsədilə Avstriyadan alınmış yeni GSM 09-32, RM-80 və USP-2000 markalı yol təmiri maşınları üçün Biləcəridəki motorlu rels nəqliyyatı, maşın və mexanizmlərin təmiri emalatxanasında anqar tikilib istifadəyə verilmişdir.

Qaz infrastrukturunun nəqletmə imkanları artırılır

"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətindən bildirmişlər ki, 2013-cü ildə qaz infrastrukturunun nəqletmə imkanlarının artırılması məqsədilə 9048,1 kilometr uzunluğunda yeni qaz kəmərləri çəkilmişdir. Bu, indiyədək qeydə alınmış ən yüksək göstəricidir.

Qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün 1774,7 kilometrlik qaz kəmərləri əsaslı təmir olunmuşdur.

Ötən il istehlakçıların qaz təchizatının yaxşılaşdırılması məqsədilə, həmçinin, 1560 ədəd qaztənzimləyici və 1071 ədəd müxtəlif diametrli siyirtmə quraşdırılmışdır.

Azərbaycanın mühasibat uçotu sistemində islahatlar maraq doğurur

Avstriyanın paytaxtı Vyana şəhərində Dünya Bankının Maliyyə Hesabatlılıq İslahatları Mərkəzi (World Bank Centre for Financial Reporting Reform) tərəfindən "Mühasibat uçotu və Auditin Təhsili üzrə Peşəkarlar Birliyinin praktik seminarı" keçirilmişdir.

Maliyyə Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, Azərbaycan Respublikası Korporativ və Büdcə Sektorlarında Hesabatlılıq Layihəsinin İdarəetmə Qrupunun direktoru Fuad Nəsirov və Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzinin direktoru Elman Hüseynov seminarda iştirak etmişlər. Dünya Bankının Maliyyə Hesabatları üzrə İslahatlar Mərkəzinin baş maliyyə məsləhətçisi Alexander Favcet və Fuad Nəsirovun "Azərbaycan - mühasibat uçotu sahəsində yeni ixtisaslaşmanın yaradılması: çağırışlar və imkanlar" mövzusunda məruzələri dinlənilmişdir.

Məruzəçilər respublikamızda Korporativ və Büdcə Sektorunda Hesabatlılıq Layihəsi çərçivəsində əldə olunmuş təcrübəni, yaradılmış hibrid ixtisaslaşma modelinin üstünlüklərini diqqətə çatdırmışlar.

Binəqədi Rayon İcra Hakimiyyətinin

Sakinlərin Müraciət Xidməti

Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!

www.binegedi-ih.gov.az

→ xarici xəbərlər

Avropada şaxtalı hava, ABŞ-da isə qasırğa ciddi fəsadlar törədib

Berlində müşahidə edilən qarlı və şaxtalı hava yolların buz bağlamasına səbəb olub. Havanın temperaturu -10 dərəcəyə düşüb. Paytaxtın magistral yollarında yüzlərcə avtomobil qəzası qeydə alınıb. Brandenburqda 494 qəza baş verib, 46 nəfər xəsarət alıb. Əlverişsiz hava şəraiti Berlində bir nəfərin həyatına son qoyub. Berlinlə yanaşı Almaniyanın şimalı və şərqində də şaxtalı hava müşahidə edilir. Ostholştaynda yolların buz bağlaması nəticəsində baş verən zəncirvari yol qəzasında iki nəfər həlak olub. Polşada da əlverişsiz hava şəraiti ciddi fəsadlar törədib. Qarlı və şaxtalı hava minlərcə sakinin iş başına gecikməsinə səbəb olub. Güclü külək səbəbindən ağaclar qırılaraq dəmiryolu xətlərinə düşüb. Nəticədə 200 qatar reysi təxirə salınıb. Polşanın mərkəzində 7500 ailənin elektrik təchizatı kəsilib. ABŞ-ın şimal-şərqində isə qasırğa ciddi fəsadlar törədib. Güclü külək və qarla əlaqədar Pensilvaniya, Nyu Cersi, Nyu-York, Konnektikut, Merilend, Vircinia, Qərbi Vircinia və Kentuki ştatlarında məktəblərdə dərslər təxirə salınıb. Paytaxt Vaşinqtonda dövlət idarələri bağlanıb. 3000-dən artıq aviareys təxirə salınıb.

Dünyada işsizliyin səviyyəsi kəskin şəkildə artıb

Beynəlxlaq Əmək Təşkilatının hesabatına görə, 2013-cü ildə dünya üzrə işsizlərin sayı 5 milyon nəfər artıb. Təşkilat bir çox ölkəni yeni iş yerlərinin açılması istiqamətində siyasət aparmadığına görə tənqid edib. Qurumun illik hesabatında qeyd olunur ki, hazırda dünyada 202 milyon işsiz var ki, bu da planetin əmək qabiliyyətli əhalisinin 6%-nə bərabərdir. İşsizliyin daha çox müşahidə olunduğu bölgələr isə Şərqi və Cənubi Asiya, həmçinin Avropa və Cənubi Böyük Səhra hesab olunur. Təşkilat hesab edir ki, ən vacib məsələ işsizliklə bağlı siyasətə yenidən nəzər salmaqdır. Yeni iş yerlərinin açılması tempinin artırılması və bu istiqamətdə layihələrə dəstək göstərilməsi labüddür.

Bəzi inkişaf etmiş ölkələrdə dövlət xərclərinin azaldılması və vergi artımı şirkətlərə böyük zərər vurub. Bu da öz növbəsində iş yerlərinin ixtisarına səbəb olub.

Ehtiyatda olan zabitlər geri çağırılır

Suriya yerli koordinasiya komitələrinin yaydığı məlumata görə, son bir gün ərzində 120 nəfər silahlı qarşıdurma və partlayışların qurbanı olub. Təkcə Hələbdə 46 nəfər qətlə yetirilib. Türkiyə ilə sərhəddə yerləşən Bəb Əl-Həva keçid məntəqəsində iki avtomobilin partladılması 16 nəfərin həyatına son qoyub. Partlayışların radikal islamçılar tərəfindən törədildiyi güman olunur. Bundan əlavə, dövlət həbsxanalarında 20 nəfər işgəncə ilə öldürülüb. Təhlükəsizlik orqanlarında çalışmış bir fotoqrafın mətbuata ötürdüyü fotoşəkillərdə minlərcə məhbusun işgəncələrə məruz qaldığı öz əksini tapıb.

Suriya prezidenti Bəşər Əsəd ehtiyatda olan hərbçilərin ordu sıralarına qayıtması barədə sərəncam imzalayıb. Sərəncam 2011-ci ilədək ehtiyata buraxılmış bütün zabitlərə şamil olunur. Ekspertlər bu addımı müxtəlif səbəblərlə izah etsələr də, müxalifət bunu hökumət qüvvələrində kadr çatışmazlığı ilə əlaqələndirib.

Mədəniyyət sahəsinə ayrılan xərclər xeyli azaldılıb

Son illərdə İtaliyada mədəniyyət sahəsinə ayrılan xərclər kəskin şəkildə azaldılıb. Abidələrin saxlanmasına ayrılan vəsait 2008-ci ildən indiyədək 2 dəfə azaldılıb. "Federculture" assosiasiyasının hesabatına görə, 2012-ci ildə mədəniyyət xərcləri Roma şəhərinin büdcəsinin 2,2%-ni təşkil edib. Misal üçün deyək ki, 2002-ci ildə bu göstərici 4,3%-ə bərabər olub. 2014-2016-cı illərdə büdcədən mədəniyyət nazirliyinə ayrılan vəsait 1,5 milyard avrodan 1,4 milyarda endiriləcək. Ötən il mədəni irsin qorunmasına ayrılan xərclər 75 milyon avro olub. 2008-ci ildə isə bu rəqəm 165 milyon avro təşkil edirdi.

→ maraqlı

Pikassonun naməlum əsəri tapılmışdır



Bosniyanın kiçik Bosanska-Dubitsa şəhərciyindəki Xalq kitabxanasının əməkdaşları, deyəsən, bütün dünyada şöhrət qazanmaq şansı əldə etmişlər.

Serbiyanın "B92" kanalı xəbər verir ki, kitabxana işçilərinin dediklərinə görə, XX əsrin ən məşhur rəssamlarından biri olan Pablo Pikassonun əsəri artıq uzun illərdir ki, burada gizli saxlanılır.

Əlbəttə, ekspertlər hələ əsərin orijinal olub-olmadığını müəyyənləşdirməlidirlər, çünki rəsmdə imza yoxdur, yalnız onun yaranma tarixi vardır. Lakin işçilər haqlı olduqlarına şübhə etmirlər.

Onların sözlərinə görə, rəsmi onlara xalq qəhrəmanı Boşko Şileqoviç vermişdir. O, bu əsəri 1964-cü ildə Parisdə şəxsən rəssamın özündən hədiyyə qəbul etmişdir.

Rəsm keçən əsrin 80-ci illərinin sonundan kitabxananın seyfində saxlanılır: əsərin təhlükəsizliyini təmin etmək üçün əməkdaşların texniki imkanları olmadığından, onu burada gizlətmişlər.

"Rossiya 24" televiziya kanalı xəbər verir ki, ekspertiza əsərin orijinal olduğunu təsdiqləsə, onu ictimaiyyətə təqdim edəcəklər. Beləliklə, böyük ispan rəssamı özü də bilmədən bu kiçik Bosniya şəhərciyini məşhurlaşdıra bilər.

→ mədəniyyət

"Cavidlər ailəsinin ensiklopedik zəkası – Ərtoğrol Cavid"

Hüseyn Cavidin ev-muzeyi bu ilin fevralında görkəmli şair və dramaturq Hüseyn Cavidin oğlu Ərtoğrol Cavidin 95 illik yubileyini qeyd etməyə hazırlaşır. Bu münasibətlə ev-muzeydə bir sıra silsilə tədbirlərin keçirilməsi planlaşdırılır.

Muzeydən bildirmişlər ki, Ərtoğrol Cavidin şəxsi arxivində saxlanan materiallar əsasında hazırlanan "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" çoxcildliyinin XI və XII cildlərinin nəşr edilməsi planlaşdırılır. Çoxcildliyin XI cildi "Azərbaycan el mahnıları və Ərtoğrol Cavidin çap olunmamış musiqi əsərləri", XII cildi isə "Balaman məktəbi" adlanır.

Yubiley çərçivəsində muzeydə "Cavidlər ailəsinin ensiklopedik zəkası – Ərtoğrol Cavid" mövzusunda elmi sessiyanın keçirilməsi, onun həyat və yaradıcılıq yolunu əks etdirən sərginin nümayiş etdirilməsi də nəzərdə tutulur.

Yeni toplu çapdan çıxmışdır

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində (MATM) ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" III Respublika elmi konfransının materialları nəşr olunmuşdur.

Muzeydən bildirmişlər ki, nəşrin məsul redaktoru MATM-ın direktoru, akademik Nailə Vəlixanlıdır.

Topluda respublikanın tanınmış muzeyşünaslarının, tarixçi, arxeoloq, etnoqraf və kulturoloq alimlərinin məqalələri dərc olunmuşdur.

Nəşrdə yer almış 50-dən çox məqalə oxuculara Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

ELAN

"BİNƏQƏDİ" QƏZETİNƏ 2014-cü İL ÜÇÜN ABUNƏ KAMPANİYASI DAVAM EDİR

Azərbaycanın bütün şəhər və rayonlarında "Binəqədi" qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) 20 manat 80 qəpik təşkil edir. Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN:1002874841; H/h:AZ42ATAZ01200150450000140060; "Atabank"ASC
VÖEN:9900006651; M/h:AZ50NABZ01350100000000032944; SWIFT ATAZAZ22